Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30-01

MART-APREL 2019-cu il

№ 56 (3954)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 8 ■

# SABİQ NAZİRİN PAŞİNYANA «SUALLI ŞİLLƏSİ» - GÜNDƏLİK YOXDURSA, VYANAYA NİYƏ GETMİSƏN...



■ səh. 2 ■

## Əliyev - Paşinyan görüşü - Azərbaycan Prezidentinin platforması əsas götürüldü, Vyana görüşünü nəticəsiz saymağa tələsməyək...

Prezident Azərbaycanın sığorta proseslərində əsl inqilab imkanları açdı

■ səh. 4 ■

Prezident Azərbaycanda sahibkarların bir sinif kimi yetişdiyini rəsmən bəyan etdi...

■ səh. 5 ■

Azərbaycan Türkiyədən silah alan ölkələrin birincisi oldu - Beynəlxalq Sülh İnstitutu hesabat yaydı...

■ səh. 8 ■

Köhnə YAP-çıların yeni davranışları - tənqidlər YAP-ın daxili mövzusudur, bəs təhqirlər...

■ səh. 10 ■

Azərbaycanın təcridetmə siyasətinin təsiri ikiqat artdı - Ermənistan Rusiyadan da, Qərbdən də üzüldü, üstəlik İran...

■ səh. 7 ■

Ermənistan kənd təsərrüfatının tənəzzülü - Paşinyanın izahı və Azərbaycandan baxış...

■ səh. 8 ■

Quşçuluq fabriklərində damazlıq yumurta problemi - Cəmiyyətdən reaksiyalar...

■ səh. 13 ■

Qeyri-Azərbaycandilli birinci siniflərə qəbulda yeni layihə...

■ səh. 13 ■



### Zəbt edilmiş ərazilərdəki erməni ordusu Azərbaycanın hücumu olmadan çökür

■ səh. 9 ■

### Babalarının saxta genosidinə görə Paşinyan suriyalıların xəcalətindən çıxır - tarixi növbəti saxtalaşdırma cəhdi...

■ səh. 11 ■



### Şəhid ailəsini İsfəndiyar Axundova uduzduran hakim Əsəd Mirzəliyevə sərt ittihamlar...

■ səh. 12 ■

■ səh. 5 ■

Əmlakı yanmış sahibkarlara Prezidentdən daha bir növ dəstək - güzəştli kredit...



■ səh. 3 ■

Sığortası olmayan şəxsi əmlaklara görə dövlət yardımı - dünyada təkrarı olmayan Azərbaycan nümunəsi...



■ səh. 4 ■

Bakıda alkoponlu binalar hələ də qalırmış və qalır - Binəqədidə böyük yanğından sonra verilmiş yüksək dövlət tapşırığı niyə sonadək icra olunmayıb...



■ səh. 10 ■

Opponentlər Paşinyanı parlamentdə anti-ABŞ çıxışına məcbur etdilər - Məxməri inqilabdan sonra bizə kömək edilmədi...



■ səh. 6 ■

Paşinyanın populist vədlərinin uğursuzluğu dünya mediasında əsas mövzulardan birinə çevrildi...



# Əliyev - Paşinyan görüşü - Azərbaycan Prezidentinin platforması əsas götürüldü, Vyana görüşünü nəticəsiz saymağa tələsməyək...

**Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında təkbətək görüş yekunlaşıb.**

Azərbaycan Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz "Twitter" səhifəsində yazıb ki, görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələləri müzakirə olunub. H.Hacıyev qeyd edib ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı və beynəlxalq hüququn prinsiplərinə uyğun Dağlıq Qarabağ münaqişəsinin mövcud format əsasında həllini dəstəkləyir.

Müzakirələrin təfərrüatları barədə məlumat açıqlanmadığı üçün nəticəni hələlik tam qiymətləndirmək mümkün deyil. Lakin Azərbaycan lideri İlham Əliyevin bu görüşə əvvəlki üç görüşdən daha fərqli yanaşdığını öncədən bütün ekspertlər söyləmişdilər. Odur ki, danışıqlarda Prezident Əliyevin heç də Paşinyanın öncədən dediyi kimi "gündəliksiz müzakirə" formatı ilə razılaşmadığı yüz faiz məlumdur. Azərbaycan Prezidentinin danışıqlarda Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi ilə status-kvonun dəyişdirilməsi, BMT TŞ-nin 4 qətnaməsinə və Helsinki Yekun Aktına, ərazi bütövlüyü prinsipinə güzəştsiz söykəndiyinə heç bir şübhə yoxdur. Xüsusilə təkbətək müzakirədə Paşinyanın görüşdən əvvəlki "gündəliksiz müzakirə" prinsipi üstündə təkid edə bilməsi tamamilə mümkünsüzdür. Azərbaycan Prezidentinin tam aydın prinsiplərlə görüşə getdiyini nəzərə alsaq, onun bu şəraitdə Paşinyanla danışığı hətta bir neçə dəqiqə belə davam etdirməsinə lüzum qalmazdı və davam etdirməzdi. Konkret məlumatların yoxluğu şəraitində məntiqə söykənsək, Paşinyanın təkbətək müzakirədə özünün əvvəlki mövqeyində qalması mümkünsüzdür və danışıqların Azərbaycan Prezidentinin prinsipial platforması üzərində davam etdirildiyinə şübhə yeri qalmır. Belə bir müzakirə atmosferinin həmsədrlərin də iştirakı ilə davam etdirildiyini isə sübut etməyə sadəcə ehtiyac yoxdur. Beləliklə, yekun vurmağa çalışaq.



Təhlillər göstərir ki, Əliyev - Paşinyan görüşündə status-kvonun dəyişdirilməsi, məzmunlu danışıqların fasiləsiz davam etdirilməsi, qarşılıqlı etimadın möhkəmləndirilməsi, Vyana və Sankt-Peterburq razılaşmalarının həyata keçirilməsi, Madrid prinsiplərinin əsas götürülməsi və növbəti görüşün mümkün qədər tezliklə keçirilməsi kimi məsələlər ətrafında, gərgin də olsa, müzakirələr gedib. Bu məsələlərlə bağlı hansısa razılaşmaların olub-olmadığını iddia etmək mümkünsüzdür. Ancaq bu məsələlər özlüyündə sübut edir ki, müzakirələr Azərbaycan Prezidentinin platforması əsas götürülməklə aparılıb.

Vyana görüşünü nəticəsiz saymağa hələlik tələsməyək.

***Tahir TAĞIYEV***

# Sığortası olmayan şəxsi əmlaklara görə dövlət yardımı - dünyada təkrarı olmayan Azərbaycan nümunəsi...

**Məlum olduğu kimi, Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Məlum olub ki, sahibkarlara dəyən ziyanla əlaqədar dövlət vəsaiti hesabına onlara yardım göstəriləcək.**



*"Prezident İlham Əliyev böyük humanistlik göstərərək sahibkarlara dəymiş ziyanın büdcədən ödənilməsi ilə bağlı qərar qəbul etdi"*

## *Fikrət Yusifov: "Bu, Azərbaycan dövlətinin vətəndaşlara göstərdiyi qayğının bariz nümunəsidir"*

Prezident İlham Əliyev bununla bağlı müşavirədə çıxış edərək bir sıra məqamlara toxunub: "Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik. Məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki, qaldı ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər".

O da məlumdur ki, sözügedən sahibkarlar mallarını sığortalamayıblar. Buna baxmayaraq, onlara bununla bağlı ediləcək yardım, göstərilən dəstək dövlətin ortaya qoyduğu nümunədir. Hansı ki, heç bir ölkədə sahibkarlara belə humanist yanaşma, qayğı yoxdur. Azərbaycan dövləti sosial ədalət prinsipindən çıxış edərək belə bir nümunə ortaya qoydu. Ümumilikdə, bu nəyin nəticəsidir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifov bununla bağlı bir sıra məqamlara toxundu: "Bu, Azərbaycan dövlətinin vətəndaşlara göstərdiyi qayğının bariz nümunəsidir. Məsələ ondadır ki, Prezident İlham Əliyev bu qəbildən olan hadisələr zamanı hər zaman xalqın yanında olur. Nəzərə almaq lazımdır ki, sözügedən ticarət mərkəzində fəlakət baş verib. İnsanlar bir neçə saatın içində böyük maddi zərərlə üzləşiblər. Təbii ki, belə olan halda, ölkə başçısının onların yanında olması və onlara maddi yardımın göstərilməsi ilə bağlı qərar verilməsi çox önəmli hadisədir. Bu, Azərbaycan dövlətinin sosial siyasət yeritməsini, xalqın maraqlarından çıxış etməsini bir daha sübut etdi. Həmişə olduğu kimi, bu dəfə də Prezident çətinliyə düşən insanları darda qoymadı və çox humanist bir addım atdı. Təbii ki, Azərbaycan dövlətinin bu məsələdə sərgilədiyi münasibət unikal yanaşmadır. Çünki adətən dünya təcrübəsində belə hallar sığorta qurumları tərəfindən aradan qaldırılır. Əmlak sahibi ödədiyi sığorta müqabilində yardım alır. Ancaq Azərbaycanda sığorta bazarı hələ ki, lazımi səviyyədə təşkil olunmayıb və bu sahədə bir sıra boşluqlar var. Bu hadisə bir daha göstərdi ki, sığorta bazarının inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır. Sığorta bazarı hələlik inkişaf etmədiyi üçün, Prezident İlham Əliyev böyük humanistlik göstərərək sahibkarlara dəymiş ziyanın büdcədən ödənilməsi ilə bağlı qərar qəbul etdi. Bununla bağlı İqtisadiyyat Nazirliyində xüsusi komissiya yaradılıb.

Komissiya hazırda bu istiqamətdə ciddi iş aparır. Hesab edirəm ki, yaxın günlərdə kompensasiyaların ödənilməsi ilə bağlı ciddi işlər görüləcək".

***Vidadi ORDAHALLI***



# İsfəndiyar Axundovun vurduğu şəhid ailəsinə Mehriban Əliyeva yardım əlini uzatdı...

**Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə şəhid zabit Sənan Axundovun ailəsi yeni mənzillə təmin olunub.**

"Trend"in məlumatına görə, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi ilə 2016-cı il aprel döyüşlərində şəhid olmuş polkovnik-leytenant Sənan Axundovun ailəsi yeni mənzillə təmin olunub.

Qeyd edək ki, bu günlərdə Ali Məhkəmə "Şərurlu İsfəndiyar" kimi tanınan İsfəndiyar Axundovun iddiası əsasında şəhid zabit Sənan Axundovun ailəsinin əlindən 50 kvadratmetrlik mənzilin alınması haqqında qərar çıxarıb.

Yaranmış vəziyyətlə əlaqədar Heydər Əliyev Fondunun nümayəndələri şəhid zabitin ailəsi ilə görüşüb və Vətən uğrunda döyüşlərdə həlak olmuş Sənan Axundovun xatirəsinin əziz tutulması, onun ailəsinin üzləşdiyi probleminin həlli ilə bağlı Fondun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən Bakının Nərimanov rayonunda yeni mənzillə təmin olunduqlarını bildiriblər.

# Birinci vitse-prezident Mehriban Əliyeva: "Azərbaycan müasir, dünyaya açıq, sülhsevər, daim əməkdaşlıq və inkişaf naminə çıxış edən ölkədir"

**Birinci vitse-prezident Mehriban Əliyeva martın 29-da Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb. Ölkəmizdə akkreditə olunan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşməkdən şad olduğunu bildirən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva deyib ki, birlikdə Novruz bayramını qeyd etmək onun üçün çox xoşdur.**

Novruz bayramının Azərbaycanın ən sevimli, ruzili və nurlu bayramı olduğunu bildirən Mehriban Əliyeva qonaqları bu bayram münasibətilə təbrik edərək deyib:

-Siz xeyli vaxtdır ki, Bakıda yaşayırsınız. Ümidvaram ki, Azərbaycanda olduğunuz müddətdə ölkəmizi tanımaq və sevmək imkanınız olub. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınır. Paytaxtımızın simasında Qərb və Şərq, qədimlik və müasirlik vəhdət təşkil edir. Azərbaycan qədim tarixə, mədəniyyətə, ənənələrə malik olan ölkədir. Eyni zamanda, biz müasir, dünyaya açıq, sülhsevər, daim əməkdaşlıq və inkişaf naminə çıxış edən ölkəyik. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Əsrlərboyu Azərbaycan torpağında müxtəlif dinlərin və millətlərin nümayəndələri dostluq və sülh şəraitində yaşayıblar. Minilliklərlə formalaşan bu tolerantlıq və multikulturalizm ənənələri bu gün də Azərbaycan dövlətinin siyasətində öz əksini tapır və hər bir azərbaycanlının qəlbində yaşayır. Mən əminəm ki, siz Azərbaycanın ən böyük sərvəti olan insanlarımızın qonaqpərvərliyini, istiqanlılığını, səmimiliyini, insansevərliyini hiss etmisiniz. Ümidvaram ki, siz ölkəmizi tərk etdikdən sonra da Azərbaycan sizin qəlbinizdə xoş anlarla, sevinc dolu xatirələrlə yaşayacaq və yenidən ölkəmizə səfər etməyi unutmayacaqsınız.

Hörmətli xanımlar, 2019-cu il Azərbaycan üçün uğurla başlayıb. Bildiyiniz kimi, ölkəmizdə çox vacib islahatlara start verilib, həm iqtisadi sahədə, həm sosial sahədə. Bu gün atılan bütün addımlar Azərbaycanın gələcək uğurlu inkişafını təmin edəcək.

Çox xoş haldır ki, ölkəmizdə xarici səfirliklərin sayı artmaqdadır. Bu gün Azərbaycanda 65 diplomatik nümayəndəlik, 13 beynəlxalq təşkilat və 4 baş konsulluq fəaliyyət göstərir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq qurub və bu əlaqələr inkişaf etdirilir. Bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır.



Hörmətli xanımlar, fürsətdən istifadə edərək mən sizin fəaliyyətinizi xüsusi vurğulamaq istərdim. Ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanda humanitar, sosial sahələrdə icra olunan layihələrə dəstək verdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Ölkələr və xalqlar arasında səmimi münasibətlərin formalaşmasında humanizm, xeyirxahlıq, insanlıq diplomatiyasını heç bir şey əvəz edə bilməz və mən buna görə sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli xanımlar, qoy bu bahar sizin üçün nurlu olsun, sizə xoşbəxtlik gətirsin. Mən sizə hədsiz xoşbəxtlik, cansağlığı, təmsil etdiyiniz ölkələrə və xalqlara əmin-amanlıq, sülh arzulayıram.

Çox sağ olun və bir daha xoş gəlmisiniz.

Görüşdə Moldovanın Azərbaycandakı səfirinin xanımı Alla Leuka "HOMS Qrupu" kimi tanınan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları adından çıxış etməyin onun üçün şərəf olduğunu deyərək, Birinci vitse-prezidentlə görüşə, "HOMS"un fəaliyyətinə verdiyi dəyərə və Novruz bayramı münasibətilə təbriklərinə görə təşəkkürünü bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

*Baki-xeber.com*



# "Diqlas"dakı yanğında zərər çəkmiş sahibkarlara 5 ticarət obyekti təklif edildi

**İqtisadiyyat Nazirliyi "Diqlas" ticarət mərkəzində baş vermiş yanğında zərər çəkən sahibkarlar üçün 5 ay icarə haqqı ödənilməmək şərtilə təklif olunan ticarət obyektlərinin siyahısını açıqlayıb.**

Bu barədə baki-xeber.com-a nazirlikdən məlumat verilib. Nazirliyin təklif etdiyi ticarət obyektləri aşağıdakılardır:

1.Dərnəgül şossesində yerləşən "Eurohome" tikinti bazarında ümumi sahəsi 50-100 kv. m arasında dəyişən 30 mağaza.

Əlaqələndirici şəxs: İlyas Möhnətov (tel: 055 297 1111)

2.Təbriz küçəsində yerləşən "Eurohome Express" də yerləşən geyim və xırdavat satışı üçün nəzərdə tutulan ümumi sahəsi 40-60 kv. m arasında dəyişən 50 mağaza.

Əlaqələndirici şəxs: Rauf Əliyev (tel: 050 796 5555)

3."Sədərək" ticarət mərkəzində ümumi sahəsi 30 kv. m olan 20 mağaza və 200 kv. m olan 5 anbar.

Əlaqələndirici şəxs: Fərid Mahmudov (tel: 050 211 8189)

Qabil Nəhmədov (tel:050 213 3368)

4.AF-COM Plazada yerləşən geyim satışı üçün nəzərdə tutulan ümumi sahəsi 6000 kv.m olan qapalı sahə (20 kv.m olmaqla bölgü aparıla bilər).

Əlaqələndirici şəxs: Rauf Əliyev (tel: 055 313 8118)

5.S.Vurgun küçəsində yerləşən "AF-Center" ticarət mərkəzində tikinti materialları və geyim satışı üçün nəzərdə tutulan ümumi sahəsi 20-50 kv. m arasında dəyişən 50 mağaza.

Əlaqələndirici şəxs: Şamil İsmayılov (tel: 050 725 0660)

İqtisadiyyat Nazirliyində əlaqələndirici şəxs: Əli Hacıyev (tel: 055 255 8007)

"Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, çünki bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük".

# Prezident Azərbaycanın sığorta proseslərində əsl inqilab imkanları açdı




*"Əmlakın sığorta olunması vacibdir, amma bunun üçün risqlər maksimum dərəcədə azaldılmalıdır"*

**Aqşin Əlizadə:** *"Bundan sonra hansısa formada tapşırıq verilməlidir ki, obyektlərdə..."*

Məlum olduğu kimi, bunu Prezident İlham Əliyev Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar keçirdiyi müşavirədə çıxışı zamanı deyib.

Ölkə başçısı bununla bağlı bəzi məqamlara toxunub: "Məsələn, bu yaxınlarda Şamaxı, İsmayıllı və Ağsu rayonlarında zəlzələ nəticəsində minlərlə evə ziyan dəydi və məlum oldu ki, heç bir ev sığortalanmayıb. Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlaklarını sığortalatsınlar. Belə olan halda, tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaq".

Həqiqətən də sözügedən hadisə göstərdi ki, sığorta sahəsində bir sıra problemlər mövcuddur. Sahibkarlar məhsulunu sığorta etmək istəmir. Bunun da müxtəlif səbəbləri var. Elə sahibkar var ki, ümumiyyətlə, bunda maraqlı deyil. İstəmir ki, buna görə sığorta pulu ödəsin. Digər tərəfdən, sığorta şirkətlərinə inam birmənalı deyil. Bir sıra sığorta şirkətləri üzərinə düşən öhdəlikləri yerinə yetirmədiyindən, digər şirkətlərə də inam azalır. İnkişaf etmiş ölkələrdə dövlətin bu tip hadisələrə müdaxiləsi minimum olur. Nəticədə dövlətin üzərində hər hansı öhdəlik qalmır. Dəymiş ziyanı sığorta şirkəti ödəyir. Çox təəssüf ki, hələlik bu, bizdə formalaşmayıb.

Bütün bu deyilənlərlə yanaşı, bundan sonra sözügedən sahədə nə edilməlidir? O cümlədən, sığorta sahəsində nə ediləcək?

Sözügedən məsələyə münasibət bildirən sığorta bazarı üzrə ekspert Aqşin Əlizadənin fikrincə, bununla bağlı bir sıra işlər görülməlidir: "Bundan sonra hansısa formada tapşırıq verilməlidir ki, obyektlərdə yanğından mühafizə sistemi gücləndirilsin, eləcə də sığortalanma imkanlarına yenidən baxılsın, sığorta məbləğləri artırılsın. Bu olsa, ticarət mərkəzinin rəhbərliyi icarədarlar qarşısında pis vəziyyətdə qalmaz, hansısa məsuliyyəti yarananda öhdəliyini yerinə yetirər. Əmlakın sığorta olunması vacibdir, amma bunun üçün risqlər maksimum dərəcədə azaldılmalıdır. Nəzərə almaq lazımdır ki, sığorta şirkəti xeyriyyə cəmiyyəti deyil. Sığorta şirkəti risqlərini idarə etməyə çalışır. Sığortaçı maksimum dərəcədə təmiz risqləri götürməkdə maraqlıdır. Böyük ticarət mərkəzlərində obyektlərdə iki növ sığorta tətbiq oluna bilər. Bunlardan biri daşınmaz əmlakın özünün sığortalanması, digəri isə əmlak sahibinin mülki məsuliyyətinin sığortalanmasıdır. Hər ikisi icbari sığortadır. Bundan başqa, sahibkarlar identifikasiya edilməsi mümkün olan malları da sığortalaya bilərlər. İdentifikasiya çox vacibdir. Təsəvvür edin ki, siz əmlakınızı 400 min manatlıq sığorta edirsiniz. Ancaq yanğın baş verəndə məlum olur ki, orada heç 50 min manatlıq əmlak olmayıb. Hazırda daşınmaz əmlakın reyestri olduğu kimi, daşınar əmlakın da reyestri var. Yəni, ən azı, həmin reyestrə salınmış mallar sığortalana bilər. Ancaq elə mallar da var ki, onları sığortalamaq mümkün deyil. Məsələn, hansısa corabı və yaxud paltarı identifikasiya etmək və sığorta obyektinə çevirmək mümkün deyil".

***Vidadi ORDAHALLI***

---

**Bakının Nizami rayonundakı "Diqlas" ticarət mərkəzində baş verən yanğın yenidən binaların üzlənməsində istifadə olunan alkopon mövzusunu gündəmə gətirmiş olub. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə bu məsələyə xüsusi olaraq toxunub.**

# Bakıda alkoponlu binalar hələ də qalırmış və qalır - Binəqədidə böyük yanğından sonra verilmiş yüksək dövlət tapşırığı niyə sonadək icra olunmayıb...



*"... sökülməsi binanı tikən şirkətin üzərinə qoyulmalıdır"*

**İlqar Hüseynli:** *"Bu günə qədər alkoponla olan binalar qalırsa, bu əsl fəlakətdir"*

Nazir bildirib ki, malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkoponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub. Qeyd edək ki, alkopon mözsuzu Azərbaycan əhalisinə yaxşı tanışdır və bizim yaddaşımızda heç də yaxşı iz buraxmayıb. 2015-ci ildə Azərbaycanın evsahibliyi etdiyi Avropa Oyunlarına hazırlıq mərhələsində Bakıda yol kənarına yaxın yerlərdə olan binaların fasadlarının sürətlə üzlənməsi həyata keçirildi. Məhz həmin ərəfələrdə Bakıda olan iki yaşayış binasında dəhşətli yanğın baş verdi. Nəticədə ölən və yaralananlar oldu. Həmin hadisələrdən biri Bakının Binəqədi rayonunda yerləşən çoxmərtəbəli yaşayış binasında meydana gəlmişdi. Elə həmin ərəfələrdə başqa bir yanğın Xətaidəki yaşayış binasında baş verdi. Onun da dəhşətli nəticələri oldu. Bu hadisələrdən sonra ölkə rəhbərliyi binalardan alkoponların sökülməsinə dair göstəriş verdi. Bizim gözlərimizin qabağında binaların fasadlarından həmin üzlüklər sürətli şəkildə sökülüb, yeni materialla əvəz olundu. Ancaq "Diqlas"da baş verən yanğın sübut etdi ki, ölkə başçısının tapşırığına lazımi şəkildə əməl edilməyib. Ölkənin fövqəladə hallar naziri Prezidentə alkoponu yanğını daha da alovlandıran faktor kimi izah edirsə, deməli, problem hələ də durur.

Baş verən məlum yanğından sonra sosial şəbəkələrdə insanlar öz yaşadıqları binaların fotosunu çəkib, alkopon təhlükəsinin onları da gözlədiyini yazırlar. Məsələn, paytaxtın Bakıxanov qəsəbəsində olan "Uğur-2" adlı yaşayış kompleksinin sakinləri həyəcan təbili çalaraq bildirirlər ki, 2000-ə yaxın ailənin yaşadığı 19 mərtəbəli, hər mərtəbəsində 12 mənzil olan 8 binadan ibarət kompleks başdanayağa alkoponla üzlənib və hər an alışıb yana bilər. Doğrudan da həmin kompleksdə hansısa qığılcımın olması baş verə biləcək faciənin fəsadını təsəvvür etmək üçün kifayət edir. Ortaya maraqlı və təəssüfedici mənzərə çıxır. Bakıda hələ də yanğın üçün təhlükəli olan və Bakıda artıq özünü pis mənada təsdiqləmiş alkopon deyilən materialla üzlənmiş kifayət qədər bina hələ də var. Onda ölkə başçısının alkoponlardan xilas olmaqla bağlı verdiyi tapşırığa niyə sona qədər əməl edilməyib?

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir adı var, o da məmur məsuliyyətsizliyi və özbaşınalığıdır: "Bəli, 2015-ci ildə baş verən binaların yanmasında biz çoxlu sayda insan tələfatının olduğunu gördük. Bununla bağlı ölkə başçısının konkret göstərişi oldu ki, bütün binalarda olan alkopon üzlüklər sökülsün. Bu göstərişə əməl etməyən rayon icra hakimiyyəti rəhbərləri, o cümlədən, məsuliyyət daşıyan digər əlaqədar qurumlardakı məsul şəxslər cəzalandırılmalıdır. Əgər Prezidentin həmin göstərişindən sonra bu günə qədər alkoponla olan binalar qalırsa, bu, əsl fəlakətdir. Həmin binaların üzərindəki alkoponların sökülməsi binanı tikən şirkətin üzərinə qoyulmalıdır. Eyni zamanda, ölkə başçısının tapşırığına əməl etməyənlər inzibati qaydada deyil, cinayət məsuliyyəti çərçivəsində cəzalandırılmalıdır. Çünki növbəti mərhələdə hər hansı yanğın baş verərsə, bu daha da ciddi insan tələfatına səbəb ola bilər. Şükürlər olsun ki, "Diqlas"da biz insan tələfatı olmadan ötüşdük. Amma bir anlığa təsəvvür edin ki, həmin hadisə insanların işdə olan vaxtı baş verəydi. Onda fəsadlar daha çox olacaqdı. Buna görə də alkoponlu binalarla bağlı yenidən araşdırma aparılmalı və qanunun tələblərinə uyğun şəkildə cəzalandırma həyata keçirilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

# Əmlakı yanmış sahibkarlara Prezidentdən daha bir növ dəstək - güzəştli kredit...

**Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin rəhbərliyi ilə müşavirə keçirilib. Müşavirədə "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla bağlı bir sıra məsələlərə toxunulub.**

*"Azərbaycan dövləti istənilən qəza səbəbilə çarəsiz vəziyyətdə qalan sahibkar və ya sadə vətəndaşa hər zaman dəstək olur"*

***Rüfət Quliyev:** "Ölkə rəhbərinin tövsiyəsi ilə "Diqlas" ticarət mərkəzində malları yanan sahibkarlara güzəştli şərtlərlə kredit veriləcək"*

O cümlədən, malları yanaraq kül olan sahibkarların üzləşdikləri maddi sıxıntıdan qurtulmaq üçün onlara dövlət tərəfindən dəstək olunacağı da bildirilib.

Prezident İlham Əliyev qeyd edib ki, sahibkarlara maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və bu barədə müvafiq göstəriş verilib: "Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar".

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə iqtisadiyyat naziri Şahin Mustafayev də çıxış edərək bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bir sıra addımlar atılacaq: "Sahibkarlara bir neçə istiqamətdə ilkin dövlət dəstəyi göstəriləcək. Müəyyən halda güzəştli kreditlərdən istifadə ilə bağlı mexanizm üzərində də işlənilir".

**"Diqlas" ticarət mərkəzində malları yanan sahibkarlara maddi və mənəvi dəstək olmaq üçün onlara güzəştli şərtlərlə kredit verilməsinin vacibliyi barəsində danışan millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan dövləti əhalinin rifahını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər görür:** "Bir neçə gün öncə Nizami rayonu ərazisində fəaliyyət göstərən ticarət mərkəzində baş verən güclü yanğın nəticəsində sahibkarların malları yanaraq kül oldu. Bu hadisə sahibkarlara maddi sıxıntı yaşatdı. Ancaq sevindirici haldır ki, Azərbaycan Prezidenti, hər zaman olduğu kimi, yenə də xalqın yanında oldu. Malları yanan sahibkarlara Prezident dəstək olacağını bildirdi. Bunun özü böyük jestdir.




Ölkə rəhbərinin tövsiyəsi ilə sahibkarlara güzəştli şərtlərlə kredit veriləcək. Eyni zamanda, Nizami Rayon İcra Hakimiyyəti tərəfindən onların başqa ticarət mərkəzində müvəqqəti işlə təmin edilməsinə də şərait yaradılacaq.

Millət vəkili vurğuladı ki, müşavirədə Prezident İlham Əliyev "Diqlas" ticarət mərkəzində çalışan sahibkarlara dövlət tərəfindən güzəştli şərtlərlə kredit verilməsinin vacibliyini bildirib: "Zənnimcə, İqtisadiyyat Nazirliyi və banklar bu həssas məsələdə bir araya gəlib sahibkarlara dəstək olacaqlar. Onlara yardım etmək üçün güzəştli şərtlərlə və uzunmüddətli kredit verilməlidir. Azərbaycan dövləti istənilən qəza səbəbilə çarəsiz vəziyyətdə qalan sahibkar və ya sadə vətəndaşa hər zaman dəstək olur".

***Günel CƏLİLOVA***

# Prezident Azərbaycanda sahibkarların bir sinif kimi yetişdiyini rəsmən bəyan etdi...

**"Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir". Bu sözləri Prezident İlham Əliyev Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar keçirilən müşavirədə deyib.**



*"Sahibkar iş yeri yaradır, fiskal və dövlət gəlirlərinin formalaşmasında iştirak edir"*

***Rəşad Həsənov:** "Sahibkarlıq sektoru daha da inkişaf etməli və sahibkarların ölkə iqtisadiyyatının inkişafında rolu artmalıdır"*

Ölkə başçısının sözlərinə görə, ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaq. Prezident qeyd edib ki, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir: "Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaq".

Həqiqətən də ötən illər ərzində görülən işlər sayəsində ölkədə sahibkarlığın inkişafı ilə bağlı ciddi nailiyyətlər əldə olunub. Azərbaycanda sözügedən sektor dinamik inkişaf edir. Nəticədə ölkədə sahibkarlar sinfi yaranıb. Hansı ki, bütün bunların sayəsində yeni-yeni istehsalat və xidmət sahələri fəaliyyətə başlayıb. Bütün bu deyilənlərin fonunda, Azərbaycanda sahibkarlar sinfi ölkənin hazırkı iqtisadi inkişafında necə rol oynayır?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, hələlik sahibkarlar sinfinin ölkənin iqtisadi inkişafında payı o qədər də böyük görünməsə də, bu istiqamətdə səyləri daha da artırmaq lazımdır: "Azərbaycan müstəqillik əldə edəndən sonra planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçməklə bağlı qərar qəbul etdi. Nəticədə ölkə iqtisadiyyatının yeni bir mərhələsi başladı. Hansı ki, burada əsas dekoderlərdən biri də milli sahibkarlığın formalaşdırılması məsələsi idi. Söhbət ondan gedir ki, biznes mühiti daha da inkişaf etdirilməlidir. İlk dövrlərdə proses çox sürətlə getdi. Qısa bir müddət ərzində əhalinin böyük əksəriyyəti hansısa bir formada sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladı. Nəzərə almaq lazımdır ki, ilk dövrlərdə bizdə bazar iqtisadiyyatının ənənələri hələ oturuşmamışdı. Çünki 70 il ölkədə iqtisadi model fərqli olub. Bu kontekstdən ortaya bir sıra problemlərin çıxması təbii idi. Bəzi vaxtlarda sahibkarlıqla bağlı müəyyən inhisarçılıq yarandı. Bu, kiçik və orta sahibkarlığın inkişafına mənfi təsir göstərdi. Son illər ölkədə sahibkarlığın inkişafı üçün bir sıra işlər görülür. Hesab edirəm ki, bütün bunlarla yanaşı, yenə görüləsi işlər var. Çünki statistik məlumatlara görə, ölkədə 1 milyondan artıq rəsmi qeydiyyatdan keçmiş sahibkarlıq subyekti var. Hansı ki, vergi orqanlarından qeydiyyatdan keçiblər. Ancaq Hesablama Palatasının məlumatına görə, məcburi sosial sığorta ödəyən sahibkarların sayı 170 min nəfərdir. Bu isə o deməkdir ki, qeydiyyatdan keçən sahibkarlar ya hansısa formada fəaliyyətini dayandırıb, ya da fəaliyyətləri zəifdir. Digər tərəfdən, kiçik sahibkarlar tərəfindən yaradılan dəyərin ölkə iqtisadiyyatında payı azdır. Məşğulluqda da payı elə də çox deyil. Beynəlxalq təcrübəyə əsasən, kiçik sahibkarlığın iqtisadiyyatda payı 50 faiz üzərində olmalıdır. Avropa İttifaqı ölkələrində bu nisbət daha böyükdür. Ona görə də ölkədə kiçik sahibkarlıq daha da inkişaf etməlidir. Çünki kiçik sahibkarlıq iş yeri, əlavə dəyər yaradır və iqtisadiyyatda məşğulluğun əsas elementlərindən biri sayılır. Bu zaman dövlətin üzərinə düşən yük də azalır. Sahibkar iş yeri yaradır, fiskal və dövlət gəlirlərinin formalaşmasında iştirak edir. Eyni zamanda, sahibkarlıq ölkədə tədiyyə balansının strukturunun dəyişməsində əhəmiyyətli formada iştirak edir. Sahibkarlıq daha da inkişaf etsə, o zaman həm yerli istehsal artacaq, həm də idxal azalacaq. Ona görə də sahibkarlıq sektoru daha da inkişaf etməli və sahibkarların ölkə iqtisadiyyatının inkişafında rolu artmalıdır. Biznes mühitinin təkmilləşdirilməsi yolu ilə inklüziv iqtisadi model tətbiq edilməlidir. Bütün sosial qrupların sahibkarlığa meylinin formalaşdırılması təmin edilməlidir. O zaman daha böyük nəticələr əldə etmək olar".

***Vidadi ORDAHALLI***

# Sabiq nazirin Paşinyana "suallı şilləsi" - gündəlik yoxdursa, Vyanaya niyə getmisən...

**Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Minsk Qrupu həmsədrlərinin iştirakilə ilk rəsmi görüş ərəfəsində Paşinyanın yenidən ziddiyyətli, qeyri-ciddi bəyanatlar verməsi öz ölkəsində də birmənalı qarşılanmayıb.**



*"Görünən budur ki, Paşinyan Qarabağ konflikti ilə bağlı nə edəcəyini, hansı addımlar atacağını bilmir"*

## Elşən Mustafayev: *"Paşinyan bu cür addımları ilə tamamilə siyasi diletant olduğunu ortaya qoymuş olur"*

O deyib ki, İlham Əliyevlə görüşdə konkret gündəm yoxdur. Yəni münaqişəyə dair ümumi məsələlər müzakirə olunacaq. Habelə Paşinyan həmsədrlərin bu günlərdə öz bəyanatlarında xatırlatdıqları Madrid prinsiplərini də "başa düşmədiyini" deyib. Onun sözlərinə görə, kim bu prinsipləri irəli sürübsə, qoy onlar mahiyyətini izah etsinlər, prinsiplərin nə demək olduğunu göstərsinlər.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri David Şahnazaryan yenə Paşinyanın Qarabağa dair mövqeyini, daha doğrusu, mövqesizliyini tənqid edib. Şahnazaryan deyib: "Mən onun Madrid prinsipləri haqda dediklərini ümumiyyətlə başa düşmürəm. Erməni hakimiyyətinin öz bazası, öz traktovkası olmalıdır. Gedib "böyük dayılardan" xahiş etməli deyil ki, bu sənəddə nə deyilir. Bakı nəyə görəsə dəqiq bildirir ki, Madrid prinsipləri dedikdə nəyi başa düşür. Erməni rəhbərliyi isə deyir: bax budur, biz Vyanaya gedirik və qoy orada izah etsinlər görək bu nə prinsiplərdir. Ondan əvvəl isə Paşinyan ümumiyyətlə demişdi ki, Əliyevlə görüşmək haqda razılıq var, amma gündəm yoxdur. Sual olunur - öz gündəmin yoxdursa, sən hara gedirsən?"

Erməni siyasətçiyə görə, həm Paşinyan, həm onun xarici işlər naziri Mnatsakanyan Qarabağ məsələsində tam siyasi və diplomatik təcrübəsizlik nümayiş etdirirlər. Sadəcə olaraq mövzudan, problemdən xəbərsizdirlər. Şahnazaryan qeyd edib ki, bu səhvlərin nəticəsində həmsədrlər və beynəlxalq ictimaiyyət indi Bakı ilə eyni mövqedən çıxış edir.

Göründüyü kimi, Paşinyanın mövqeyinə hətta öz ölkəsindən ciddi təpki var, onu səriştəsizlikdə, siyasətin əlifbasını belə bilməməkdə günahlandırırlar. Ermənistan ictimai rəyinin Vyana görüşü ilə bağlı Paşinyana qarşı belə aqressiv davranmasının kökündə hansı amil dayanır?

Azərbaycan Milli İstiqlal Partiyası sədrinin beynəlxalq məsələlər üzrə müavini Elşən Mustafayev qezetimizə bildirdi ki, Paşinyanın çox məntiqsiz bəyanatlarının onun öz ölkəsində də narazılıqla qarşılanacağı bəlli idi: "Bir ölkəyə rəhbərlik edən şəxs deyir ki, başqa ölkənin başçısı ilə görüşdə nəyin müzakirə ediləcəyindən xəbərsizdir. Özü də söhbət aralarında dərin konfliktin olduğu bir ölkədən gedir. Çox doğru sual verilib: gündəm yoxdursa, hara gedirsən? Əslində, Paşinyan və Ermənistan siyasi dairələri gözəl bilirlər ki, ölkə başçıları özü də vasitəçilərin iştirakılə yalnız bir-birinin üzünə yaxından baxmaq üçün görüşməz. Bu tip görüşlərdə mütləq mənada gündəm olur. Paşinyan bu cür addımları ilə tamamilə siyasi diletant olduğunu ortaya qoymuş olur. Onun bütün addımları bu yöndədir. Xarici siyasət kursunda da hara meyilləndiyini hələ dəqiq bilmir. Ən maraqlısı isə budur ki, onun ətrafına topladığı komandası da özü ağıldadır. Onlar da Paşinyan kimi ziddiyyətli və gülməli bəyanatlar verirlər. Görünən budur ki, Paşinyan Qarabağ konflikti ilə bağlı nə edəcəyini, hansı addımlar atacağını bilmir. Gündəmin olmadığı ilə bağlı imitasiyanı isə daxili auditoriyanı sakitləşdirmək üçün ortaya atır. Artıq Ermənistandakı ictimai rəy Paşinyanın siyasi oyunbazlıqla məşğul olduğunu görür. Onun qarşısında bütün istiqamətlər üzrə konkret tələblər qoyulacaq.

Daxili siyasətdə də heç bir irəliləyişə imza ata bilməyən bu komandanın uzun müddət siyasətdə qala biləcəyi inandırıcı görünmür".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın populist vədlərinin uğursuzluğu dünya mediasında əsas mövzulardan birinə çevrildi...

**"The Washington Times" qəzetində "Jewish News Syndicate" nəşrinin sabiq baş redaktoru Ceykob Kamarasın "Məxməri inqilabın kənarında" adlı məqaləsi dərc olunub. Müəllif məqaləsində yaxınlarda hakimiyyət dəyişikliyinin ildönümünün olacağını xatırladaraq, Ermənistanda baş verən "məxməri inqilab" və onun nəticələrinə toxunub.**



*"ABŞ mətbuatında yazılanlar da bunun təsdiqidir"*

## Elşən Manafov: *"Qərbin Paşinyana olan ümidləri, faktiki olaraq, fiaskoya uğradı"*

Müəllif yeni baş nazir Nikol Paşinyanın qeyri-ardıcıl siyasətini və Ermənistanın ağır siyasi və iqtisadi vəziyyətini təhlil edib. Məqalədə qeyd olunur ki, özünü islahatçı və demokrat adlandıran Nikol Paşinyan Qarabağ müharibəsinin keçmiş militaristlərindən ibarət olan "köhnə qvardiyanı" kənarlaşdıraraq hakimiyyəti ələ keçirib.

Müəllif əlavə edir ki, "məxməri inqilab"dan bir il ötür: "Lakin cənab Paşinyanın Ermənistan xalqı və beynəlxalq birliyə verdiyi vədlərə dair heç bir əhəmiyyətli və ya ümumiyyətlə hər hansı inkişafa nail olunmayıb".

O xatırladır ki, Avropa ölkələri, həmçinin, Ermənistanın ABŞ Konqresindəki qatı tərəfdarları Paşinyanı tərifləməyə başladılar. Kamaras əlavə edir ki, bununla belə, Ağ ev və Dövlət Departamenti milli təhlükəsizlik üzrə müşavir Con Boltonun bu yaxınlarda həyata keçirdiyi səfərdən sonra Ermənistan hökumətinin yeni rəhbərinə kifayət qədər skeptik yanaşırlar. Regiona səfər etmiş ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri C.Boltonun mövqeyini təhlil edən müəllif yazır ki, müşavir Cənubi Qafqazı Birləşmiş Ştatlar üçün strateji cəhətdən əhəmiyyətli region, Azərbaycan və Gürcüstanı ABŞ-ın etibarlı müttəfiqləri hesab etməklə yanaşı, siyasi cəhətdən müstəqil dövlət olmayan Ermənistanın hələ də bu "layiqli kluba" daxil ola bilmədiyi qənaətindədir.

Kamaras qeyd edir ki, cənab Boltonun sözlərinə görə, müvəffəqiyyətin açarı qondarma və qanunsuz "dövlət" yaratmaq adı altında Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi ilə nəticələnən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllidir. Bu münaqişənin nizama salınması Ermənistanı transformasiya edə bilər və baş nazir N.Paşinyanın da öz inqilabi çıxışlarında vəd etdiyi kimi, onun müstəqillik, müasirlik və tərəqqi yoluna qədəm qoymasına şərait yaradar.

Görünən odur ki, Paşinyanın ilk vaxtlar verdiyi vədlərin populist xarakterli olduğunu artıq ABŞ mətbuatı da etiraf edir. Artıq Qərb Paşinyana bəslənən ümidlərin özünü doğrultmadığını anlayır və bunu açıq şəkildə bəyan etməkdən çəkinmir. O baxımdan bütün bunları ekspertlər necə şərh edirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, ABŞ mətbuatı fərqindədir ki, Paşinyanın vədləri ucuz populizmə söykənir: "Ona görə də onun fəaliyyətini haqlı olaraq tənqid edirlər. Paşinyan iqtidara gəlməzdən əvvəl də populist xarakterli vədləri ilə erməni ictimaiyyətində tanınırdı. Paşinyan, ümumiyyətlə, populist siyasətçilərdən biridir. O, real hakimiyyətin və siyasətin nə olduğunu, üzərinə düşən məsuliyyəti anlasaydı, praqmatik siyasət yürüdərdi. O bilməli idi ki, Ermənistanın olduqca ağır vəziyyətində, ölkənin vacib layihələrdən kənarda qaldığı dövrdə Azərbaycanla hər iki tərəfin maraqlarına uyğun danışıqlara getmək lazımdır. O isə danışıqların formatının dəyişdirilməsinə cəhd etdi. Yəni Paşinyanın xarici siyasətində bir-birinə daban-dabana zidd olan baxışlar göstərir ki, real hakimiyyətin onun üzərinə düşən siyasi məsuliyyətini anlamaq iqtidarında deyil. Bu da Qərbin ona bəslədiyi ümidləri heçə endirir. Ən nəhayət, Paşinyan hakimiyyətə gələndə Ermənistanın durumu onsuz da ağır idi. Ermənistan korrupsiyanın inkişaf göstəricisinə görə Ukraynadan sonra ikinci yerdə idi. Paşinyan Qərbin maliyyə dəstəyilə hakimiyyətə gəldi. Əslində, o, qısa zaman ərzində Qərbin maliyyə institutlarından kreditlərin alınmasına nail olmalı idi. Ancaq o buna nail olmadı. Ona görə ki, Qərbin maliyyə qurumlarının Paşinyan qarşısında qoyduğu öhdəliklərin yerinə yetirilməsi istiqamətində onun atdığı addımlar adekvat deyildi. Yetərincə ziddiyyətli addımlar idi. Ona görə də Qərb hələ ki, Paşinyan hakimiyyətinə maliyyə yardımı göstərmək fikrindən uzaqdır. Reallıq ondan ibarətdir ki, Paşinyan islahatlarla bağlı verdiyi vədləri yerinə yetirmir. Bu gün Ermənistanın ən ciddi problemi maliyyənin azlığıdır. Sözügedən problemin həll edilməməsi ölkəni uçuruma aparır. Onu da qeyd etmək lazımdır ki, Ermənistanda Qərblə Rusiyanın maraqları üst-üstə düşmür. Bu da Paşinyanı gah Qərbə, gah da ehtiyatla Rusiyaya boylanmağa təhrik etdi. Nəticədə vaxt əldən getdi və Paşinyan bir il ərzində verdiyi vədləri yerinə yetirilməsi üçün konkret addımlar ata bilmədi. Ona görə də Qərbin Paşinyana olan ümidləri, faktiki olaraq, fiaskoya uğradı. ABŞ mətbuatında yazılanlar da, bir növ, bunun təsdiqidir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanın təcridetmə siyasətinin təsiri ikiqat artdı - Ermənistan Rusiyadan da, Qərbdən də üzüldü, üstəlik İran...

**Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti nəticəsində kifayət qədər ağır duruma düşən Ermənistan üçün hələ də hansısa müsbət perspektiv görünmür. Bu ölkədə məlum hakimiyyət dəyişikliyindən sonra Qərbin Ermənistana böyük dəstək göstərəcəyinə dair gözləntilər də özünü qətiyyən doğrultmur.**

Ermənistanın Qərbdən gözlənilən maliyyə dəstəyi almaması, İrəvanın ABŞ və Avropada eşidilməməsi lə qeyd edilənlərin real təsdiqidir.

Digər tərəfdən, ötən bir il ərzində Ermənistanın Rusiya ilə münasibətlərinin daha da pisləşməsi özünü qabarıq surətdə büruzə verir. Ekspertlər bildirir ki, Qərb və Rusiya ilə münasibətləri sürətlə pisləşən Ermənistan üçün Azərbaycanın təcrid siyasəti daha sərt nəticələr verəcək. Çünki Ermənistan əvvəllər Rusiya və Qərbdən aldığı dəstəyi də itirir və belə vəziyyətdə o, üzləşdiyi təcrid üzündən daha acınacaqlı duruma düşməyə məhkumdur. Baş verənlər Ermənistan hakimiyyətində də ciddi təşviş doğurur. Məhz bu səbəbdən Rusiya ilə münasibətləri pisləşdirən Ermənistanın baş naziri Nikol Paşinyan indi, ABŞ başda olmaqla, Qərb dövlətlərini də tənqid etməyə başlayıb. Məsələn, o bildirir ki, Amerika Birləşmiş Ştatları Ermənistandakı inqilaba, praktik olaraq, reaksiya verməyib. Parlamentdə 2018-ci il ərzində hökumət proqramının reallaşdırmasının müzakirəsi zamanı "Lusavor Hayastan" fraksiyasının üzvü Arman Babacanyanın Ermənistanın KTMT-də uğursuzluğu və Ermənistan-Rusiya münasibətlərində etibarın artmaması barədə tənqidi fikirlərinə münasibət bildirən Paşinyan etiraf edib ki, bu durumda Ermənistan-Amerika münasibətləri də nəinki inkişaf etmir, əksinə, bu əlaqələrin iqtisadi əsaslarını təşkil edən komponentlər təhdid altına düşüb: "Məsələn, mən Amerika nümayəndələrinə dedim: hesab edirəm ki, onlar praktik olaraq sıfır reaksiya verdilər. Niyə? Nə vaxt biz deyiriksə ki, bizim üçün ölkəmizin müstəqilliyi əhəmiyyətlidir, onu nəzərdə tutmuruq ki, A bəndindəki asılılıq B bəndindəki asılılıqla əvəz edilməlidir".

Ekspertlər vurğulayır ki, Avropa İttifaqı, ABŞ



Ermənistanın Rusiyanın təsiri altından çıxmaq üçün müvafiq addımlar atmamasından çox narazıdır. İranla da münasibətlərin kəsilməməsinin ABŞ-da narazılıqla qarşılanması heç kimə sirr deyil. Ermənistanın Rusiyanın dəstəyilə Suriyaya hərbi birlik göndərməsi də açıq narazılıq doğurur. Nəticədə Ermənistan Qərblə gözlənildiyi kimi sıx münasibətlər qura bilmir. Ermənistanın Avrasiya İqtisadi Birliyinə və KTMT-yə üzv olması da prosesə təsirini göstərir. Məhz bunun nəticəsidir ki, Qərbdə Paşinyana qarşı narazılıq artır. Xatırladaq ki, bu xüsusda "The Washington Times" qəzeti də Paşinyanın ünvanına sərt tənqidlə çıxış edib. Qəzet açıq mətnlə vurğulayır ki, Paşinyanın siyasəti fonunda Ağ Ev və Dövlət Departamentinin içini Ermənistan sarıdan hələ də şübhələr gəmirir: "Cənubi Qafqaz ABŞ üçün strateji cəhətdən həyati bölgədir; Azərbaycan və Gürcüstan ABŞ-ın dayanıqlı və etibarlı müttəfiqləridir; Ermənistan suverenliyini Rusiyaya bağlayaraq, bu hörmətli kluba qoşula bilmir.

ABŞ rəsmisi Con Boltonun sözlərinə görə, müvəffəqiyyətin əsası Dağlıq Qarabağ münaqişəsinin - Ermənistan və Azərbaycan arasında mövcud olan qarşıdurmanın sülh yolu ilə həllidir. Bu münaqişə nəticəsində Ermənistan tanınmayan "dövlət"in adından Azərbaycan ərazisinin 20 faizini işğal edib. Ekspertlər hesab edir ki, Cənubi Qafqaz, region kimi, bütün üç xalqın tam iştirakı ilə geniş potensialını həyata keçirə bilər. Beləliklə, Ermənistan Dağlıq Qarabağ münaqişəsini sona çatdırmalı, eyni zamanda, vassalın kölgəsindən çıxmalı və tərəfdaşlığın göstəricisi kimi Rusiya ilə eşqbazlığını inkar edən davranış nümayiş etdirməlidir.

Ermənistanın İran və Rusiya ilə ittifaqdan çıxması perspektivi bir çoxlarını şövqə gətirmişdi; kasıb erməni əhalisinə fayda vermək üçün iqtisadi islahat vədləri, 1991-ci ildə Sovet İttifaqından müstəqillik qazandıqdan sonra Rusiyanın təsir dairəsindən Qərbə yönəldilən Cənubi Qafqaz qonşuları ilə uyğun bir yola çıxma sözü verilmişdi. Bütün bunlar və digər məsələlər gündəmdə idi, həm də şəffaf şəkildə, o cümlədən xoş məramla, danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması. Münaqişə Ermənistanın hekayətinə dərindən perçimlənir və Ermənistanda inkişafın yoxluğu dərin yoxsulluq, kəskin beyin axını və ən əhəmiyyətlisi, Ermənistanın Rusiya və İrandan asılılıqda olmasının birbaşa və dolayı səbəbidir.

Ermənistan qonşularının güzgüdəki tərs əksidir. Neft və qazla zəngin Azərbaycan və sahibkarlıq təşəbbüsü ilə tanınan Gürcüstan böyük iqtisadi inkişafdan həzz alır: neft və qaz boru kəmərləri, limanlar, Qərb-Şərq dəmir yolu, peyklər, turizm, təhsil, müasir tibb, elm, incəsənət və xalqlar arasında qarşılıqlı hörmət və ehtiram. Bir il keçsə də, cənab Paşinyanın erməni xalqına və beynəlxalq birliyə verdiyi vədlərin yerinə yetirilməsi istiqamətində, demək olar ki, heç bir irəliləyiş əldə etməyib.

Ermənistan iqtisadiyyatı qeyri-səmərəli liberallaşma və ya şaxələndirmə təcrübəsi yaşayıb. Rusiya oliqarxları hələ də enerji sektorunda, eləcə də çoxsaylı digər sahələrdə böyük paylara malikdir. Cənab Paşinyan vəzifəyə gəldiyi gündən sonra ilk səfərini Moskvaya edib və sonradan bir neçə dəfə eyni yolu gedib. İqtidara gəldikdən dərhal sonra Paşinyan dördüncü nəsil "Su-30SM Flanker-H" döyüş təyyarəsinin alınması üçün Rusiya ilə danışıqlar aparıb. ABŞ-ın başqa bir əlavə narahatlığı Ermənistanın sanksiyaları pozması şübhəsidir. Rusiyadan 140 milyon ABŞ dolları dəyərində silah tədarükü, əlbəttə, dərin narahatlığa səbəb olur. İranın ABŞ istehsallı "F-14 Tomcats" donanması necə olsun? Rusiya istehsalı olan "Flankers"lər İran hərbi hava qüvvələri üçün gözəl bir əlavə sayılardı.

Son dövrdə Ermənistan İrana sanksiyalardan yan keçməkdə kömək edib. Avropa silahları Ermənistan vasitəsilə qaçaqmalçılıqla İrana göndərilib və İraqdakı üsyançılara çatdırılıb: amerikalı əsgərlər erməni qanunsuzluğu və sanksiyaların pozulması nəticəsində həlak olub. Erməni siyasəti, diplomatiyası və iqtisadiyyatı, sözsüz ki, azlığın əlindədir. "Məxməri inqilab" məzhəkədir? Daimi sual: cənab Paşinyan Rusiya və İranın istəyi ilə status-kvonu saxlayır və ya onun idarəçilik potensialı yoxdur? Hər iki halda, Gürcüstan və Azərbaycan müvəffəqiyyət qazanmaq üçün nə etmək lazım olduğunun nümunəsi kimi görünür. Baş nazir Paşinyan yalnız onların izi ilə getməlidir". ABŞ-ın nüfuzlu mətbu orqanında səslənən bu fikirlərdən aydın görünür ki, Rusiyada olduğu kimi, Qərbdə də Paşinyandan narazılıq artır.

***Tahir TAĞIYEV***

# Azərbaycan Türkiyədən silah alan ölkələrin birincisi oldu - Beynəlxalq Sülh İnstitutu hesabat yaydı...

**Hərb sənayesində Azərbaycanın diqqətdə saxladığı əsas məsələlərdən biri də ordunun ən müasir texnika ilə təmin edilməsidir. Bu sahədə Azərbaycan, yerli istehsalla yanaşı, xaricdən də texnika alışına xüsusi önəm verir. Ölkəmizin qeyd olunan istiqamətdə sıx əməkdaşlıq etdiyi ölkələrdən biri qismində isə qardaş Türkiyə çıxış edir.**



Qeyd edək ki, son illər ərzində Türkiyə hərbi sənayedə bir çox uğurlara imza atıb. Araşdırmalar göstərir ki, Türkiyə 2009-cu ildən bu yana silah-sursat ixracatını 1.7 dəfə artırıb. Məsələ ilə bağlı Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) araşdırmaçılarından olan Piter Veizman Türkiyənin silah ixracatı ilə bağlı detallı hesabatı "Axşam" qəzetinin əməkdaşı Gökhan Ertaşa təqdim edib. Hesabata əsasən, Azərbaycan Türkiyədən ən çox silah-sursat alan ölkələr arasındadır. Ölkəmiz Türkiyədən silah alan dövlətlərin siyahısına başçılıq edir. Azərbaycan qardaş ölkədən 35 ədəd "Kobra", 37 ədəd "Shorland", 30 ədəd "T-107 ÇNRA", 40 ədəd "T-122/300 ÇNRA", 20 ədəd "T-300 ÇNRA", 108 ədəd "TRG-300 Kaplan" raket, 25 ədəd SOM raketi alıb. Ümumiyyətlə, ölkəmiz silah sistemlərinin önəmli hissələrini Türkiyədən almağa üstünlük verməyə başlayıb. Məhz bu fonda Azərbaycan Türkiyədən idxal olunan silah sayını artırıb. Azərbaycanla yanaşı, Türkiyədən Bəhreyn, Banqladeş, Birləşmiş Ərəb Əmirlikləri, Burkina Faso, Gürcüstan, Çernoqoriya, Qətər, Qazaxıstan , Kolumbiya, Kosovo, Küveyt, Makedoniya, Mavritaniya, Özbəkistan, Ruanda, Malayziya, Misir, Pakistan da silah alır. Türkiyədən hərbi texnika alan ölkələr arasında Rusiya da var. Rusiya qardaş ölkədən 2 ədəd hərbi yükdaşıyan gəmi alıb.

Yuxarıda qeyd olunduğu kimi isə, Türkiyədən silah alışına görə lider ölkə qismində Azərbaycan çıxış edir. Özü də Azərbaycan Türkiədən ən müasir və son silahların alışını həyata keçirir. Qeyd edək ki, Azərbaycan indiyədək Türkiyədən 122 millimetr çaplı "T-122 Sakarya" reaktiv atəş sistemləri, "Qasırğa" raketləri, ROKETSAN şirkətinin istehsalı olan TR-107 artırılmış mənzilli raketləri və digər silahlar alıb. Özü də bunlar kifayət qədər mükəmməl silahlardır. Məsələn, "Qasırğa" raketləri çox güclü silah sayılır. Bu raketlərin atış mənzili 130 kilometr məsafədir. GPS və İNS naviqasiyasına malik bu raketin dəqiqliyi maksimum məsafədə 30 metr təşkil edir. "Qasırğa" ilə nəinki İrəvanı, Ermənistanın dərinliyindəki istənilən təhlükə yaradan hədəfləri məhv etmək olar. Bununla, həmçinin, Naxçıvandan Qarabağdakı erməni hədəflərinə də zərbələr endirmək mümkündür. Türkiyənin "Harp Arge" şirkəti bundan öncə də Azərbaycana kiçik ölçülü dronlarla mübarizə aparmaq üçün "Drone Savar" ("Drone Killer") adlı silah sisteminin satışını həyata keçirib. "Drone Savar" elektromaqnit silah sistemi multikopter tipli pilotsuz uçuş aparatları ilə mübarizə məqsədilə hazırlanıb. Qardaş ölkədən alınan digər silahlar da ordumuzun döyüş gücünü əhəmiyyətli dərəcədə artırır. Bundan başqa məlumdur ki, Türkiyədən yeni silahların alışı da diqqət mərkəzindədir. Məsələn, hərbi əməkdaşlığın dərinləşməsinə müvafiq olaraq, Azərbaycan qardaş ölkədən Ermənistanı qorxuya sala biləcək daha bir texnikanın alışını həyata keçirə bilər. Söhbət Türkiyənin müasir "Altay" tanklarından gedir. "Altay" Cənubi Koreyanın "K2" tankının müasirləşdirilmiş formasıdır. Tankda "Qara panter"in 60% -dək texnologiyalarından istifadə edilib.

Digər tərəfdən, Azərbaycanın Türkiyədən "Anka" pilotsuz uçuş aparatının silahlı konfiqurasiyası olan "Anka-S" PUA-sını alması belə istisna olunmur. Qeyd edək ki, "Anka-S" PUA-nın silahlı testləri uğurlu keçirilib. Silah 200 kiloluq faydalı yüklə 24 saat uçuş həyata keçirir. Azərbaycan istəyəcəyi təqdirdə, türk tərəfinin onu təreddüdsüz ölkəmizə satacağı isə şübhə doğurmur.

Ölkəmiz Türkiyədən "T-129 ATAK" tipli hücum vertolyotu alınmasına da çox maraq göstərir. Xatırladaq ki, Türkiyə və İtaliyanın ortaq layihəsi olan "T-129 ATAK" hərbi helikopterlərinin sürəti saatda 300 kilometrə çatır, hər cür hava şəraitində, gecə və gündüz uçuş həyata keçirə bilir. Helikopter həm də Türkiyə istehsalı olan kompyuter sistemi ilə təchiz edilib. Helikopterin 42 fərqli avionika və silah sistemi Türkiyə şirkətləri tərəfindən istehsal olunur. Ekspertlər bildirir ki, "T-129 ATAK" döyüş helikopterlərinin alınması Azərbaycan hərb aviasiyasını daha güclü hala gətirəcək. Ümumiyyətlə, Azərbaycan aviasiyasının güclənməsində Türkiydən müvafiq hərbi texnika alınması daim xüsusi önəm verir. Qarşıdakı dövrdə Türkiyədən yeni hərbi texnikalar alınması istisna olunmur. Elə Türkiyə tərəfi də Azərbaycanla hərbi əməkdaşlığa xüsusi önəm verdiyini açıq bəyan edir. Bütün bunlar hər iki ölkənin mövqelərinin daha güclü hala gəlməsini də təmin edir.

***Nahid SALAYEV***

# Ermənistan kənd təsərrüfatının tənəzzülü - Paşinyanın izahı və Azərbaycandan baxış...

**Ermənistanda kənd təsərrüfatı sahəsində vəziyyət son dərəcə ağırdır. Qeyd olunan ölkənin aqrar sektorunda vəziyyətin ağır həddə olmasını Ermənistanın baş naziri Nikol Paşinyan da etiraf edib. O, hakimiyyətə gəldiyi bir il ərzində kənd təsərrüfatında ciddi enişin olduğunu dilə gətirib.**



*Aydın Hüseynov: "Ermənistanda kənd təsərrüfatının zəifləməsi səbəblərindən biri də aqrar təsərrüfatın yanlış planlaşdırılmasıdır"*

2018-ci ilin yekunları ilə bağlı martın 28-də keçirilən hökumət müşavirəsində o deyib ki, bu geriləmə əsasən ziyanvericilərlə bağlı olub. Paşinyan onu da deyib ki, ziyanvericilərdən əlavə, geriləmənin daha bir səbəbi yanlış planlaşdırma və "kölgə" bağları olub ki, bu faktları hökumət artıq aşkara çıxarıb.

Maraqlıdır, doğrudanmı Ermənistanın kənd təsərrüfatında geriləmənin səbəbi yanlış planlaşdırma və "kölgə" bağlarıdır?

**Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son zamanlar Ermənistanın kənd təsərrüfatı eniş dövrünü yaşayır.** Bunun bir neçə səbəbi var. O səbəblərdən biri də aqrar təsərrüfatın yanlış planlaşdırılmasıdır: "Bundan əlavə, Ermənistanda aqrar sahə ilə məşğul olmaq üçün mütəxəssis, demək olar ki, yox dərəcəsindədir. Təbii ki, bu amil də kənd təsərrüfatının geriləməsinə səbəb olur".

Həmsöhbətimizin sözlərinə görə, Ermənistanın maldarlıq sahəsində də vəziyyət son dərəcə ağırdır. Çünki həmin ölkədə mal-qaranın sayı azalmaqda davam edir.

Millət vəkili onu da vurğuladı ki, Ermənistanın tək kənd təsərrüfatında deyil, bütün sahələrində geriləmə var. Bu geriləmə düşmən ölkənin iqtisadiyyatını daha da zəifləndir: "Ermənistan hakimiyyətini təmsil edənlərin nə iqtisadi, nə də siyasi səriştəsi olmadığı üçün, ölkənin aqrar sektoru inkişafdan geri qalır. Məlumdur ki, Nikol Paşinyan hakimiyyətə gəlməzdən öncə xalqa yanlış vədlər vermişdi. Ancaq sonradan əhaliyə məlum oldu ki, Paşinyanın xalqa verdiyi vədlər boş sözlərdən ibarət idi".

**A.Hüseynov qeyd etdi ki, Ermənistan regional layihələrdən kənarda qalır. Xaricdə yaşayan ermənilər tərəfindən ölkəyə göndərilən valyutanın həcmi azalmaqda davam edir. Xaricdən ölkəyə daxil olan valyutanın azalması, istər-istəməz, ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olur. Bütün bu hallar Ermənistan iqtisadiyyatını çökdürəcək.**

***Günel CƏLİLOVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Zəbt edilmiş ərazilərdəki erməni ordusu Azərbaycanın hücumu olmadan çökür

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqları nəticə verməyəcəyi təqdirdə Azərbaycan problemin güc yolu ilə çözüm hüququndan istifadə edəcəyini ən yüksək səviyyədə bəyan edib. Elə beynəlxalq hüquq da bu məsələdə Azərbaycanın fəaliyyətinin tam legitim xarakter daşımasını özündə ehtiva edir.**

Azərbaycan və Ermənistan liderlərinin Vyana görüşündən sonra isə problemin hərb, yoxsa dinc müstəvidə həllini tapacağı daha dəqiq şəkildə bəlli olacaq.

Amma bu gün birmənalı həqiqətdir ki, Ermənistan üçün ən böyük qorxu elə Qarabağ münaqişəsinin güc yolu ilə çözülə biləcəyidir. Real vəziyyətin təhlili göstərir ki, ermənilərin bu qorxularını şərtləndirən əsas məqam ordularına olan güvənin tam şəkildə itməsidir. Ölkədə hakimiyyət dəyişikliyindən sonra orduda hansısa müsbət istiqamətdə yeniliklər olacağına dair gözləntilər də özünü doğrultmayıb. Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilən ordu hissələrində vəziyyət daha acınacaqlıdır. Digər tərəfdən, Nikol Paşinyan iqtidarının da Qarabağdakı hərbçilərə münasibəti birmənalı deyil. Söhbət buradakı hərbi hissələrin rəhbərlərindən gedir. Paşinyan onları keçmiş iqtidarın əsas dəstəkçiləri qismində qəbul edir. Məhz bu fonda yayılan məlumatlara əsasən, Paşinyanın təkidi ilə işğal altında olan ərazilərdə istefaya göndəriləcək erməni hərbçilərin sayı artır.

Artıq erməni mediasında Qarabağda qanunsuz dislokasiya olunan Ermənistan ordusunun qanunsuz hərbi birləşməsində bir sıra yüksək vəzifəli hərbçilərin istefaya göndəriləcəyi ilə bağlı yeni məlumatlar ortaya çıxıb. Belə ki, istefaya göndəriləcək yüksək vəzifəli hərbçilər arasında "1 Mart" cinayət işi çərçivəsində İrəvana dindirilməyə çağrılan hərbi birləşmənin komandir müavini general Samvel Karapetyan, digər müavinləri Qarik Safaryan və Vardan Balayan da var. Lakin bu addımın qanunsuz hərbi birləşmədə həyata keçiriləcək "böyük təmizləmə" əməliyyatının başlanğıcı olduğu qeyd olunur. Bu əməliyyatın digər qurbanları "peşəkar" hərbçi kimi tanınan Slavik Danielyan, hərbi birləşmənin arxa cəbhə üzrə müavini Boris Davidov və digərlərinin də olacağı, lakin bu dəyişikliklərin mərhələli şəkildə həyata keçiriləcəyi bildirilir. Erməni mediası yazır ki, "Qarabağ klanı"na yaxın olan bu şəxslərin ordudan uzaqlaşdırılması silahlı qüvvələr üçün yeni böyük zərbə olacaq.

Digər tərəfdən, onsuz da təchizat və şəxsi heyət baxımından zəbt olunmuş ərazilərdəki hərbi hissələrdə vəziyyət Ermənistanla müqayisədə daha acınacaqlıdır. Məsələn, elə erməni mənbələrinin yaydığı məlumata əsasən, işğal altında olan yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında baxımsızlıq və tibbi ləvazimatların çatışmazlığı səbəbindən xəstələnmə halları çoxalıb. Xəstələrin komandirlər tərəfindən müalicəyə göndərilməsi yenə müşkül məsələyə çevrilir. Bunun ən əsas səbəbi isə ön xətt bölmələrində döyüş növbətçiliyinə cəlb ediləcək şəxsi heyətin çatışmamasıdır. Məlumatda deyilir ki, neçə gündür xəstəlikdən və yüksək hərarətdən əziyyət çəkən, hava hücumundan müdafiə bölmələrində xidmət edən erməni hərbi qulluqçu Aşot Qrutyanın müalicəyə göndərilməsi yalnız onun valideynləri bir çox yerlərə şikayət etdikdən sonra mümkün olub. Həkimin dediyinə görə, müalicəsi intensiv terapiya bölməsində davam etdirilən əsgər A.Qrutyanın sağlamlıq durumu stabil ağır olaraq qalır. O da bildirilir ki, xəstə əsgərin müalicəsi üçün tələb olunan dərmanlar da onun valideynləri tərəfindən alınır.

"Jamanak" qəzeti isə diqqəti bu fonda ona yönəldir ki, Nikol Paşinyan baş nazir postunu tutduqdan sonra etdiyi kadr dəyişiklikləri də orduda vəziyyətin müsbətə doğru dəyişməsinə gətirib çıxarmayıb. Əksinə, orduda döyüş və qeyri-döyüş şəraitində itkilər davam edir. Erməni ekspert Ara Zohrabyan isə Nikol Paşinyanın bu istiqamətdə səsləndirdiyi bütün fikirləri kəskin tənqid edir. O bildirir ki, baş verənlər Paşinyan iqtidarının səriştəsizliyini göstərir, xüsusən də orduda yeni böyük problemlər yaradır.

Elə bunun nəticəsidir ki, Ermənistanda hərbi qulluqçular xidmətdən yayınmaqda davam edirlər. Digər tərəfdən, zabit heyətinin sıravi əsgərlərə və ya rütbəcə daha aşağı olanlara münasibətinin də erməni ordusunun çox ciddi problemlərindən birinə çevrilməsi əsas diqqət mərkəzində yer alır. "Qraparak" qəzeti bu xüsusda maraqlı bir məqama diqqət çəkir. Qəzet yazır ki, Qarabağ ərazisində qanunsuz dislokasiya olunan "N" saylı hərbi hissənin şəxsi heyətlə iş üzrə "komandir müavini", polkovnik-leytenant Ara Kamalyanı hərbi xidmətdən xaric ediblər. Qəzetə müsahibəsində Ara Kamalyan qondarma qurumun hərbi birləşmə komandirinin şəxsi heyətlə iş üzrə müavini, "Zampolit armii", general-mayor Vardan Balayanın onu ordudan kənarlaşdırmaq istədiyini bildirib.

Onun bildirdiyinə görə, tezliklə Vardan Balayanın özünü təqaüdə göndərəcəklər. Kamalyan qeyd edir ki, "zampolit armii" ona qulluq edənləri sevir və ona qulluq etmədiyinə görə orduda son pisliyini həyata keçirmək niyyətindədir.

Qeyd edir ki, aralarındakı münaqişənin səbəbi oktyabrın 1-də xidmət etdiyi hərbi hissədə əsgərin özünü asması və qondarma qurumun hərbi birləşmə "komandiri"nin əmri ilə vəzifəsinin aşağı salınmasına dair verilən əmrin icra edilməməsidir. Belə ki, özünü asaraq intihar edən əsgərə görə Kamalyanın və hərbi hissə komandirinin digər müavini barədə vəzifəsinin aşağı salınmasına dair qondarma qurumun hərbi birləşmə "rəhbərliyi"nin əmri olsa da, Ermənistan Müdafiə Nazirliyi tərəfindən aparılan araşdırmada günahları sübuta yetirilmədiyi üçün onlara qarşı bu əmrin tələbləri tətbiq edilməyib. Balayan isə buna görə onunla prinsip aparmağa başlayıb, indiki vəzifəyə başqasını təyin etmək niyyəti boşa çıxıb. Hazırda isə hər yerdə onu səhlənkar zabit kimi təqdim etməyə çalışır. Hazırda müqavilə müddəti başa çatsa da, xidmətin davam etdirilməsi üçün onunla yeni müqavilə imzalanmasından imtina edilir. O bildirib ki, toplanışlardan biri zamanı qondarma qurumun hərbi birləşmə "rəhbərliyi"nə problemini bildirməsinə baxmayaraq, hələ də cavab yoxdur. Ara Kamalyan evinin təmiri üçün ayda 205 min dram kredit ödədiyini, sosial vəziyyətinin ağır olduğunu qeyd edir. O, onun kimi ağır vəziyyətdə olan zabitlərin çoxluğunu və onların əksəriyyətinin ordudan yayınmağa çalışdığını da etiraf edib.

Heç şübhəsiz, orduda ağır vəziyyətin hökm sürdüyünü göstərən daha bir faktor bu günlərdə Mehridə baş verən hadisələr və bununla bağlı yeni maraqlı faktların üzə çıxmasıdır. Xatırladaq ki, Mehridə dislokasiya olunan hərbi hissələrdən birinin müddətli xidmət hərbi qulluqçuları etirazlarını bildirməklə hərbi hissəni özbaşına tərk edib və şəhərdə oğru aləminə sadiqliq yürüşü keçiriblər. Əldə edilən məlumata görə, itaətsizlik çağırışları edən erməni hərbi qulluqçular arasında Ermənistan Müdafiə Nazirliyinin generallarından birinin övladı da olub. Media orqanları həmin generalın kimliyini müəyyən etməyə nail olub. Söhbət övladı həmin hərbi hissədə xidmət edən, Müdafiə Nazirliyinin milli müdafiə araşdırmaları institutunun rəisi, general-mayor Qennadi Tavaratsyandan gedir. Erməni mediası bu xüsusda aşağıdakıları yazır: "Burada maraqlı bir məqam var ki, həmin hərbi qulluqçuları cəzalandıraraq ön xəttə göndəriblər. Ermənistanın Müdafiə naziri David Tonoyanın bu cəza siyasəti ölkədə mövcud, məqsədyönlü təbliğat fəaliyyətinə ziddir. Biz bir tərəfdən deyirik ki, ön xətdə xidmət edənlər qəhrəmandır, digər tərəfdən də cinayətə yol verənləri, hərbi hissəni özbaşına tərk edənləri cəza olaraq ön xəttə göndəririk. Belə çıxır ki, Müdafiə naziri David Tonoyan ön xətdə xidmət etməyin cəza olduğunu təsdiq edir. Halbuki, "məxməri inqilab" dövründə komandirlərin fəaliyyətinə etiraz olaraq, inqilabın zəruriliyini dəstəkləyən hərbi hissəni özbaşına tərk edən sülhməramlı briqadanın hərbi qulluqçularına qarşı prokurorluq heç cinayət işi belə açmadı, hərbi qulluqçuları cəzalandırmadı. Lakin eyni hərəkəti edən komandirlərin səhv fəaliyyətinə etiraz əlaməti olaraq hərbi hissəni özbaşına tərk etmiş Mehridəki hərbi hissənin hərbi qulluqçularına qarşı Ermənistanın Baş Prokurorluğu cinayət işi açıb".

O da qeyd edilir ki, belə hallar orduya onsuz da cəmiyyətdə sarsılmış inamı daha da zəiflədir. İndi erməni mediasında aktiv müzakirə edilən məsələ budur ki, belə ordu iəl Azərbaycanın qarşısında nə dərəcədə davam gətirmək mümkündür. Ümumi xülasə və yekun nəticə budur ki, erməni ordusu Azərbaycan qarşısında çox zəifdir. Özü də bu etiraflar Qarabağda savaş ehtimalının artması fonunda edilir.

Baş verənlərə münasibət bildirən rus ekspert Aleksey Sinitsın Ermənistanın yaranmış durumda məntiqli addımlar atmasını vacib sayır. Onun sözlərinə görə, məsələnin hərbi həlli İrəvan və bütünlükdə erməni cəmiyyəti üçün müsbət heç nə vəd etmir. O, Qarabağ məsələsində, ümumiyyətlə, bütün istiqamətlər üzrə Ermənistanın mövqelərinin daha da zəiflədiyini, Azərbaycanın isə daha güclü hala gəldiyini də vurğulayır: "Birincisi, Qarabağı heç kim Ermənistan ərazisi kimi tanımağa hazırlaşmır. İkincisi, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə bütün əsasları var. Bu əsaslar beynəlxalq hüquqla, beynəlxalq hüquq iş görə bilmədikdə isə, belə deyim, "gücünün hüququ" formulası ilə təmin olunur. Qarabağ münaqişəsində bu hüquq Azərbaycana məxsusdur". Ekspert hesab edir ki, Azərbaycanın hərb variantından istifadə etməsi Ermənistana müsbət heç nə vəd etmir. Məhz bu səbəbdən hesab edilir ki, İrəvan münaqişənin dinc müstəvidə həllini tapması üçün müvafiq addımlar atmalıdır, Əks təqdirdə Ermənistanı daha böyük problemlər gözləyir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Hakim Yeni Azərbaycan Partiyasının klassik üzvlərindən olan bəzi şəxslərin son zamanlar partiyanın ünvanına sərt tənqidlər yağdırdıqlarının şahidi oluruq. İstənilən partiyanın daxilində belə müzakirələrin getməsi, tənqidi fikirlərin səslənməsini normal qarşılamaq olar.**

# Köhnə YAP-çıların yeni davranışları - tənqidlər YAP-ın daxili mövzusudur, bəs təhqirlər...



Ancaq bütün bu müzakirələrin həm də bir siyasi əxlaq səviyyəsində aparılması zərurəti ortaya çıxmış olur. Təbii ki, YAP-ın ünvanına səslənən ittihamları partiya funksionerləri cavablandırmalıdırlar. Ancaq bizə maraqlı gələn məsələnin başqa tərəfidir.

Bu günlərdə YAP-ın yaradıcılarından olan sabiq nazir Əli Nağıyev verdiyi müsahibədə hakim partiyanın ünvanına tənqidlə yanaşı, təhqiredici fikirlər də səsləndirib. Məsələn, o, YAP-ın 700 minlik üzvünün olması ilə ölkədəki inəklərin sayı arasında uyğunsuz, siyasi etikaya uyğun olmayan bir müqayisə aparıb. Belə olan təqdirdə adama sual verərlər ki, bu şəkildə aşağıladığın partiyanın üzvlüyündə niyə qalırsan? Araşdırdıqda məlum olur ki, son zamanlar hakim partiyanı tənqid edən klassik üzvlərin hamısı hələ də YAP-ın sıralarındadır. Ən azı, siyasi etikaya görə fəaliyyətini bəyənmədiyin partiyadan istefa verməlisən. Maraqlıdır ki, son dövrlər bu istiqamətdə aktivləşən Eldar Sabiroğlu, Maksim Musayev, Rizvan Cəbiyev belə bir addımı atmaq istəmirlər. Qeyd edək ki, Əli Nağıyevin YAP-ın ünvanına səsləndirdiyi təhqirlər cavabsız qalmayıb. Yeni Azərbaycan Partiyasının üzvü olan deputat Aydın Hüseynov sabiq əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanın Belarusdakı keçmiş səfiri Əli Nağıyevin YAP və ölkə başçısı ətrafında olan bəzi insanlar haqqında təhqiramiz ifadələr işlətməsinə cavab verib. Aydın Hüseynov açıqlamasında bundan təəssüfləndiyini bildirib: "Bu gün kimsə Əli Nağıyevin YAP-ın təşkilatlanmasındakı rolunu danmır. Elə ulu öndər Heydər Əliyev də onun bu əməyinə dəyər verib, etimad göstərərək yüksək vəzifələrə təyin etdi. Hətta Əli Nağıyev özü dəfələrlə bəyan edib ki, məni bu yüksək məqamlara çatdıran məhz Heydər Əliyev oldu. Amma indi Əli Nağıyev tamamilə fərqli mövqe sergiləyir. Mükafatın əvəzi budurmu? Göstərilən etimadın müqabilində YAP üzvləri haqqında xoşagəlməyən ifadələr işlədəsən?! Bu onu deməyə əsas verir ki, Əli Nağıyevin YAP fəaliyyətindəki məqsədi heç də partiyanın ali məramına xidmət etmək yox, öz şəxsi maraqlarını təmin etmək olub".

Deputat deyib ki, indi YAP cəmiyyətdə böyük nüfuza malik siyasi təşkilatdır və burada cəmiyyətin bütün təbəqələri təmsil olunub: "Elə onların qınağı Əli Nağıyev üçün yetərlidir. 700 min YAP üzvü haqqında səsləndirdiyi fikir, sadəcə, partiyada qəzəb hissi doğurur və bu hərəkətinə görə onu qınayırıq".

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının digər üzvü, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Ə.Nağıyevin fikirlərinə münasibət bildirərkən deyib ki, YAP cəmiyyətdə fəaliyyəti, dövlətə xidməti ilə tanınan bütün üzvlərinə həmişə hörmətlə yanaşıb. Bu məsələdə kimin hansı vəzifə daşımasının əhəmiyyəti yoxdur: "Müəyyən mərhələdə partiya sıralarında olan, amma sonradan fəaliyyəti ilə partiyanın adına ləkə gətirən, dövlətçiliyə xidmətdə səhvlərə yol verən insanlara həmişə prinsipial qiymət verilib. Yeni Azərbaycan Partiyasında sədaqətli partiya üzvlərinə, Heydər Əliyev yolunun sədaqətli davamçılarına həmişə böyük hörmət olub, bundan sonra da belə olacaq".

Bu gün YAP-ı sərt tənqid edən partiyanın klassik üzvlərinin nə istədikləri də bəlli deyil. Çünki onlar ölkə başçısını dəstəklədiklərini bəyan edirlər və eyni zamanda, Prezidentin sədri olduğu partiyanı yeri gələndə təhqir belə etmək kimi cəsarət ortaya qoyurlar. Onların çıxışlarından hiss edilir ki, daha çox vəzifədən çıxarılmaları və hazırda işsiz olduqlarından narahatdırlar. Həmin şəxslərin hər biri vaxtilə yüksək vəzifələrdə olublar. Sonra bəziləri yaşları ilə bağlı, bəziləri isə onlara tapşırılan işin öhdəsindən lazımınca gələ bilmədikləri səbəbindən vəzifələri ilə vidalaşmalı olublar. Bu da normaldır. Məhz bu amilə görə üzvü olduğu partiyanı təhqir belə etməkdən çəkinməmək doğru yol ola bilməz. Çünki dövlət vəzifəsi heç kim üçün əbədi deyil. Hər halda, üzvü olduğu partiyanı təhqir etməkdənsə, onun sıralarından istefa vermək daha hörmətli görünərdi.

***Məhəmmədəli QƏRİBLİ***

---

**Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı ABŞ-ı tənqid edib. Paşinyanın Vaşinqtonun ünvanına tənqidlər səsləndirməsinə səbəb isə deputatların təzyiqi ilə üzləşməsi olub. Belə ki, "Çiçəklənən Ermənistan" partiyasının üzvü Arman Babacanyan yeni hakimiyyət dövründə Ermənistanın KTMT-də uğursuzluğa düçar olduğunu, Moskva-İrəvan münasibətlərində etimadın zəiflədiyini deyib.**

# Opponentlər Paşinyanı parlamentdə anti-ABŞ çıxışına məcbur etdilər - Məxməri inqilabdan sonra bizə kömək edilmədi...

## *Əli Əliyev: "Vyana görüşü ərəfəsində o, ABŞ-a mənfi mesaj yollamaqla Rusiyanın dəstəyini qazanmaq istəyir"*



O, həmçinin, Paşinyana irad tutub ki, Rusiyanın təlimatı ilə Suriyaya humanitar missiya göndərməklə Ermənistan hökuməti təkvektorlu Rusiyapərəst xarici siyasət yürüdür və bu fonda İrəvan-Vaşinqton münasibətləri nəinki inkişaf etmir, əksinə, Amulsar mədənindəki problemlə əlaqədar bu münasibətlərin iqtisadi əsasları təhlükə altındadır. Çünki amerikan kapitalı ilə işləyən Amulsar qızıl mədəninin istismarı dayandırılıb və "Lydian International Limited" şirkəti hökuməti xəbərdar edib ki, Ermənistanı beynəlxalq məhkəməyə verəcək.

Babacanyanın sözlərinə görə, Paşinyanın xarici siyasətdə yol verdiyi səhvlərə və qeyri-müəyyənliyə görə Ermənistan həm Rusiya, həm də ABŞ-ın yardımından məhrum ola bilər.

Deputatın bu iradlarına cavabında isə Paşinyan gözlənilmədən ABŞ rəhbərliyini tənqid atəşinə tutub: "ABŞ Ermənistandakı inqilaba, demək olar ki, heç bir reaksiya göstərmədi. Məsələn, mən amerikalı nümayəndələrə dedim ki, onlar praktiki olaraq sıfır reaksiya verdilər. Niyə? Ölkəmizin suverenliyi bizim üçün vacibdir deyəndə "A"məntəqəsindən (Rusiya) asılılığın "B" məntəqəsindən (ABŞ) asılılıqla əvəzlənməsini nəzərdə tutmuruq. Biz bu məsələyə olduqca ciddi yanaşırıq".

Paşinyanın birdənbirə, məhz danışıqların gərgin fazasında ABŞ-ı tənqid etməsi nə ilə bağlı ola bilər?

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan bu açıqlamanı təsadüfən verməyib:** "Ola bilər ki, parlamentdə belə bir gərgin mənzərə bilərəkdən yaradılıb. Belə qənaətə gəlinsin ki, Paşinyan spontan olaraq bu fikri səsləndirib. Qətiyyən belə deyil. Çox mühüm mahiyyət kəsb edən bəyanatdır və Ermənistan üçün lazım olan məqamda verilib. Paşinyan çox gözəl anlayır ki, Dağlıq Qarabağ probleminin əsas fiqurantı Rusiyadır. Vyana görüşü ərəfəsində o, ABŞ-a mənfi mesaj yollamaqla Rusiyanın dəstəyini qazanmaq istəyir. Bununla Paşinyan Rusiyaya pozitiv mesajını göndərmiş olub. Biz də qəbul etməliyik ki, konfliktin açarı ABŞ-dan çox Rusiyanın əlindədir. Paşinyan ABŞ-dan məsafələnib, Rusiyaya yaxınlaşmaqla özünü Qərbin və ABŞ-ın mümkün təzyiqlərindən sığortalayır. ABŞ-ın bu məsələyə operativ reaksiya vermək imkanı olmayacaq. Çünki burada bəzi profilaktik məsələləri həyata keçirmək lazımdır.

Paşinyanın əsas məqsədi Vyana görüşündə üstünlük əldə etməkdir. Yəqin ki, görüşdən sonra ABŞ-la problemi də yoluna qoymağı düşünəcək. Paşinyanın bu gedişini daha çox siyasi tamaşaya bənzətdim".

***Məhəmmədəli QƏRİBLİ***

# Babalarının saxta genosidinə görə Paşinyan suriyalıların xəcalətindən çıxır - tarixi növbəti saxtalaşdırma cəhdi...

**Ermənistan hökuməti dünyaya yalan məlumatlar yaymaqda və tarixi hadisələrə yanlış yanaşma sərgiləməkdə davam edir. Bu ölkənin dövlət rəsmiləri heç bir tarixi fakta istinad etmədən həqiqətə uyğun olmayan fikirlər səsləndirirlər. Onların açıqlamalarından belə qənaətə gəlmək olar ki, sanki tarixdən xəbərsizdirlər.**



*"1920-ci ilin avqust ayına qədər Yəmən, İraq, Suriya və digər ərəb xalqları Osmanlı dövlətinin himayəsində yaşayıblar"*

Ermənistan mətbuatının yazdığına görə, bu ölkənin baş naziri Nikol Paşinyan parlamentdə gedən müzakirələr zamanı Ermənistanın Suriyaya göndərdiyi yardımla bağlı mövqeyini açıqlayıb. O, çıxışında bu yardımın əsaslı olduğunu bildirməklə yanaşı, qeyd edib ki, Ermənistan bununla suriyalılara olan "tarixi borcunu" qaytarır.

Maraqlıdır ki, N.Paşinyan bunun səbəbini tarixə ekskurs (?) edərək əsaslandırmağa çalışıb. "Əgər bu gün erməni həkim orada hansısa bir insanı xilas edəcəksə, bu bizim borcumuzu qaytarmaq anlamına gələ bilər. Çünki 1915-ci ildə (qondarma soyqırımı nəzərdə tutur - İ.S.) onların babaları bizə o vaxt çörək və su veriblər. Hesab edirəm ki, biz bunu Suriya xalqına qaytarmalıyıq" - deyə bildirən N.Paşinyan növbəti dəfə tarixi təhrif edib.

N.Paşinyanın suriyalıların 1915-ci ildə ermənilərə dəstək göstərməsi, onlara yardım etməsi ilə bağlı fikirlərinin nə kimi tarixi əsası var?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyan həmişə olduğu kimi, bu dəfə də yalan danışaraq həm erməni cəmiyyətini, həm də dünya ictimaiyyətini çaşdırmaq niyyəti güdür. Birinci Dünya Müharibəsi dövründə, konkret olaraq 1915-ci ildə suriyalıların Osmanlı dövlətinin himayəsində olduğunu xatırladan V.Abışovun sözlərinə görə, bu halda heç bir suriyalı hansısa bir erməniyə dayaq dura bilməzdi. Paşinyanın qondarma erməni soyqırımını yenidən gündəmə gətirərək suriyalıları burada "ermənilərin xilaskarı" kimi qələmə vermək cəhdlərinin arxasında yeni siyasi məqsədlərin gizləndiyini deyən V.Abışov qeyd etdi ki, Ermənistanın Suriyaya yardım göndərməsinin səbəbi "yaxşılığın əvəzini" qaytarmaq deyil, onlar bunu Rusiyanın diqtəsi ilə edib. "Bilirsiniz ki, ermənilərin bu cür yanlış, çaşdırıcı məlumatları dünya ictimaiyyətinə çatdırmaq cəhdləri ilk dəfə deyil. Onlar həmişə özlərindən olmayan hadisələr uydurur və bundan Türkiyənin əleyhinə istifadə edirlər. 1920-ci ilin avqust ayına qədər Yə-

***Vaqif Abışov:** "Tarixdə 1915-ci ildə suriyalıların ermənilərə dəstək göstərməsi kimi faktlar yoxdur"*



*"O vaxt suriyalılar ermənilərə necə kömək edə bilərdilər ki, onların özlərini Osmanlı dövləti himayə edirdi"*

mən, İraq, Suriya və digər ərəb xalqları Osmanlı dövlətinin himayəsində yaşayıblar. Bu xalqların həmin dövrdə nəinki dövləti, hətta bir muxtariyyəti belə yox idi. Belə olduğu təqdirdə, Paşinyanın suriyalıların babalarının ermənilərə yardım etməsi ilə bağlı iddiaları doğru deyil. Bu, bir növ, qondarma erməni soyqırımının təbliğatına yönəlmiş bir məsələdir. Bu baxımdan, yalan ayaq tutar, yeriməz. Paşinyanın yalan danışdığını həmin dövrə aid bütün tarixi faktlar, siyasi hadisələr təsdiqləyir. Bütün dünya dövlətləri də yaxşı bilir ki, tarixdə erməni soyqırımı adlı bir hadisə olmayıb. Bu fikirlər də Paşinyanın növbəti dividend qazanmaq cəhdləridir. Tarixdə 1915-ci ildə suriyalıların ermənilərə dəstək göstərməsi kimi faktlar yoxdur" - deyə bildirən tarixçi-alimin sözlərinə görə, Suriya 1920-ci ildən Fransanın tərkibində olub və 1944-cü ildə müstəqillik qazanıb. Onun sözlərinə görə, Suriya müstəqil olduğu dövrlərdə də dünya siyasətinə təsir edə bilməyən zəif dövlət olub. "O vaxt suriyalılar ermənilərə necə kömək edə bilərdilər ki, onların özlərini Osmanlı dövləti himayə edirdi. Bu gün də dağıdılmış, bir dənə də olsa salamat tikilisi qalmayan Suriya əhalisinin çox böyük qisminə Türkiyə dövləti sığınacaq verib. Onlar bu ölkəyə sığınıblar. Suriyalılara hazırda ən çox dəstək verən Türkiyədir. Türkiyə Osmanlının varisi olaraq yenə də öz xeyirxah missiyasını davam etdirir" - deyə alim qeyd etdi.

***İradə SARIYEVA***



# "Fransanın xarici işlər naziri" İsraildə həbs edildi

**İsrail polisi özlərini "Fransanın xarici işlər naziri" kimi təqdim edib bir iş adamını aldadaraq 8 milyon avrosu alan 3 nəfəri həbs edib.**

İsrail və Fransa vətəndaşları olduqları bildirilən şübhəlilərin Fransanın xarici işlər naziri Jan-İv Le Drianın ofisinin bənzərini yaratdıqları, bu ofisdən də seçdikləri qurbanlarla Skype-la görüntülü danışıqlar apardıqları bildirilir.

İsrail mediası yazır ki, İsraildəki bir ofisdə Le Drianın ofisinin bənzərini yaradan qrup eyni kreslo, Fransa prezidenti Emmanuel Makronun portreti və fransız bayrağından da istifadə edib.

İddialara görə, dələduzlar iş adamlarına pulun Fransanın gizli əməliyyatları üçün lazım olduğunu, Mali və Suriyada girov saxlanan fransızların azad olunması qarşılığında istifadə ediləcəyini deyiblər. Şübhəlilər iş adamları və böyük şirkət rəhbərlərinə pul transferinin gizli qalmasının vacibliyini də bildiriblər. Onlar bir iş adamından pulu nağd şəkildə alıb.

İsrail və Fransa hüquq-mühafizə orqanlarının birgə əməliyyatı nəticəsində şübhəlilərin Təl-Əvivdə olduqları yer müəyyənləşdirilib. Şübhəlilər 2 milyon ödəməyi qəbul edən bir başqa qurbanla görüşdükləri zaman saxlanıb.

Şübhəlilərin qurban seçdiyi qadının kimliyini polis də əvvəlcədən müəyyənləşdirərək, onunla birlikdə şübhəlilərlə görüşə gedib. Onlardan ikisi elə hadisə yerində saxlanıb, biri isə qaçmağı bacarıb.

**Ancaq qısa müddət sonra polis onu da həbs edib. Əməliyyatdan sonra polis şübhəlilərlə əlaqəsi olduğu bildirilən Təl-Əvivdəki bir yaxtaya da əl qoyub.**



# Şəhid ailəsini İsfəndiyar Axundova uduzduran hakim Əsəd Mirzəliyevə sərt ittihamlar...

## *Əliməmməd Nuriyev: "Çox təəssüf edirəm ki, iş adamı şəhid ailəsinin evinə əl uzatdı, bu, hər şeydən əvvəl mənəvi cəhətdən haqsızlıqdır"*

**Sosial şəbəkələrdə və internet saytlarında iş adamı Şərurlu İsfəndiyarın (İsfəndiyar Axundov) məhkəmə yolu ilə aprel şəhidi, polkovnik-leytenant Sənan Axundovun ailəsinə məxsus evi əllərindən alması barədə xəbərlər yayılıb. Sosial mediada iş adamının aprel şəhidinin ailəsinə qarşı sərgilədiyi bu davranış ciddi qınağa səbəb olub.**

Prezident İlham Əliyev iş adamlarının fəaliyyətinə hər zaman diqqət göstərib və onlar üçün münbit şərait yaradıb. Eyni zamanda, dəfələrlə vurğulayıb ki, iş adamlarının cəmiyyət qarşısında sosial məsuliyyəti var və onlar hər zaman həssas qruplara dəstək olmalı, onlarla bağlı həyata keçirilən layihələrdə yaxından iştirak etməlidirlər. Ölkə başçısının, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın şəhid ailələrinə diqqət və qayğısı, həssas qruplara göstərdikləri münasibət iş adamları üçün də bir nümunə olmalıdır. Təəssüf ki, bir çox iş adamı özlərinin sosial məsuliyyətini dərk etmək istəmir. Aprel şəhidinin ailəsini evsiz qoyan Şərurlu İsfəndiyar kimi.

Aprel şəhidi, polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı Nəcibə Axundova mətbuata bildirib ki, iş adamı Ali Məhkəmənin çıxardığı qərarla onlara məxsus evi əllərindən alıb. Nəcibə Axundovanın sözlərinə görə, S.Axundov şəhid olmamışdan bir neçə il əvvəl "Kamran MMC"nin tikdiyi binadan 50 kvadratmetr yer götürüb, sonra "Kamran MMC"nin işçiləri barəsində cinayət işi başlanıb və binanın 11 mərtəbəsini biznesmen Şərurlu İsfəndiyar alıb.

O qeyd edib ki, iş adamı həmin binada əlavə beş mərtəbə də tikib. Onun sözlərinə görə, Şərurlu İsfəndiyar isə sakinlərlə şərt kəsib və deyib ki, binadakı mənzillər üçün onun istədiyi qiymət ödənilməlidir.

Şəhidin xanımının verdiyi məlumata görə, məhkəmə proseslərindən biri Sənan Axundov sağ olanda baş tutub, qərar Axundovlar ailəsinin lehinə olub, lakin Ali Məhkəmə Şərurlu İsfəndiyarı müdafiə edib və şəhid ailəsini evsiz qoyub.

N.Axundova deyib ki, Şərurlu İsfəndiyara əlavə ödəniş etməkdən imtina etdiklərinə görə evləri əllərindən alınıb: "Mən Şərurlu İsfəndiyardan əlavə mənzil və ya başqa heç nə istəmirəm. Tələbim yalnız haqqını ödədiyimiz mənzilimizdir. Onu da İsfəndiyar yalnız ikiqat pul ödədikdən sonra bizə verəcəyini deyir. Əvvəl bizdən 100 min, sonra 53 min manat istəmişdilər. Biz bu mənzilə 53 min manat ödəmişdik, 11 min manat isə borcumuz qalmışdı. Əlavə ödəniş verməyə razılaşmamışdıq. Bina təhvil veriləndən sonra 76 ailədən mənzillərin ikiqat qiymətini tələb etdi və razılaşanlara çıxarış verildi. Kim ki, onun istədiyi məbləği vermədi, onların müqavilələrini yeniləmədi, saxta adlandıraraq məhkəmələrə verdi" - deyə o qeyd edib.

N.Axundova açıqlamasında diqqətçəkən müqayisə apararaq bildirib ki, Ali Məhkəmənin lehinə qərar çıxardığı vətəndaşlardakı müqavilələrlə onların müqaviləsi arasında heç bir fərq yoxdur. Bəs necə olur ki, məhkəmə birinin müqaviləsini saxta hesab edir, digərininkini isə həqiqi? "Biz Ali Məhkəmədə bu məsələni qaldırdıq. Kassasiya şikayətinə bir müraciəti də əlavə edərək bildirdik ki, eyni şirkət, eyni bina, eyni müqavilələsi olan vətəndaş məhkəməyə müraciət edib və məhkəmə Şərurlu İsfəndiyarın əleyhinə qərar çıxarıb. Vətəndaş məhkəməni udub. İsfəndiyar vətəndaşı Apelyasiya Məhkəməsinə verib. Lakin yenə Ali Məhkəmə vətəndaşın hüquqlarını müdafiə edib və onun lehinə qərar çıxarıb. Mən başa düşə bilmirəm ki, bizim situasiyada fərqli olan nədir ki, Ali Məhkəmə Apelyasiyanın qərarını qüvvədə saxladı? Halbuki, söhbət eyni binadan, eyni müqavilədən gedir. Bizdə isə müqavilənin saxta olduğunu irəli sürdülər. Belə çıxır ki, bu saxta müqavilə ilə iki il bundan əvvəl başqa bir vətəndaş haqqında Apelyasiya Məhkəməsinin verdiyi qərar ləğv edilib və vətəndaşın xeyrinə qərar çıxarılıb. Yəni məhkəmə özünü təkzib edir?! Bəs 76 ailənin müqaviləsi də eyni cür verilib, onlar saxta olmadı, elə bizim müqaviləmiz saxta oldu?" - deyə qeyd edən N.Axundova onu da bildirib ki, srağagünkü prosesi aparan hakim Əsəd Mirzəliyev onların fikirlərinə önəm verməyib və şəhid ailəsinin hüquqlarının tapdalanmasına göz yumub: "Elə ilk başda bizə əlavə heç bir fikir söyləməyimiz tapşırıldı. Mən dərhal buna etiraz etdim. Çünki o ev, o mənzil mənim pulumla tikilib. Bunu qeyd etməməliyəm? Məhkəmə hələ başlamamışdı, amma artıq çıxarılacaq qərar bəlli idi. Məhkəmə bizə söz vermək, fikrimizi dinləmək istəmirdi. Bu, adi qonşu mübahisəsi deyil, mal-mülk davası deyil. Bu, biznesmenin Azərbaycan torpaqları uğrunda canından keçmiş oğulun, şəhidin ailəsinə qarşı ədalətsizliyidir. Mən demirəm kimsə bizə əlavə üstünlük versin, mən öz haqqımızı tələb edirəm. Lakin məsələyə obyektiv yanaşılmır" - deyə o vurğulayıb.

Şəhid xanımı, həmçinin, məsələ ilə bağlı çıxarılan ədalətsiz qərardan ölkə rəhbərliyinə müraciət ünvanlayaraq, ədalətin bərpa edilməsində kömək istəyib.

Qeyd edək ki, Şərurlu İsfəndiyar aprel şəhidinin ailəsinin əlindən onlara məxsus 50 kvadratmetrlik mənzili alsa da, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva S.Axundovun ailəsini sevindirib.



*"Ola bilsin, sənədlərdə hüquqla bağlı hansısa kiçik problemlər olub, ancaq bu o demək deyil ki, həmin iş adamı şəhid ailəsinə qarşı bu cür davranış nümayiş etdirməli idi"*

Belə ki, Mehriban Əliyevanın göstərişi ilə şəhid zabitin ailəsi yeni mənzillə təmin olunub.

Aprel şəhidi, polkovnik-leytenant S.Axundovun ailəsinə məxsus evi onların əlindən alan iş adamı İsfəndiyar Axundovun bu hərəkətini qətiyyətlə pisləyən tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı Xəbər"ə bildirdi ki, şəhid ailəsi hüquqi baxımdan haqsız olsaydı belə, iş adamının belə bir addım atması mənəvi cəhətdən doğru deyil. O bunun hüquqi yox, daha çox mənəvi bir məsələ olduğunu vurğulayaraq bildirdi ki, iş adamları hər şeyi öz biznes maraqlarına qurban verirlər. "Yadımdadır, cənab Prezident özü də deyib ki, iş adamlarının öz funksiyaları var, onlar biznesdən gəlir əldə etməlidir, ancaq, eyni zamanda, onların cəmiyyət qarşısında da öz məsuliyyəti var. Bu da sosial məsuliyyətdir. Yəni cəmiyyətdə kövrək, həssas insanlar, təbəqələr var, iş adamları onlara münasibətdə daha diqqətli olmalıdırlar. Cəmiyyətin xeyrinə keçirilən sosial-ictimai layihələrə iş adamları dəstək verməlidirlər. Çox təəssüf ki, Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan şirkətlərin, insanların mütləq əksəriyyəti sosial məsuliyyət anlayışından uzaqdır, onların yeganə məqsədi yalnız gəlir əldə etməkdir. Bizdə böyük tikinti şirkətləri var və onlar daha çox qazanırlar, lakin biz onların sosial layihələrdə hər hansı bir iştiraklarını görmürük. Əslində, şəhid ailələri Vətən, torpaq uğrunda həlak olan insanların ailələridir. Onlara yalnız dövlət tərəfindən deyil, cəmiyyətin bütün təbəqələri tərəfindən diqqət-qayğı göstərilməlidir. Özəl sektor da şəhid ailələrindən öz qayğısını əsirgəməməlidir. Bu məsələ ilə bağlı hüquqi baxımdan problemlər var idisə belə, bu məhkəmə prosesi şəhid ailəsinin xeyrinə həll oluna bilərdi. Mənə elə gəlir ki, bundan həmin şəxsin gəlirləri azalmayacaqdı, əksinə, o, xeyirxah əməlinə görə özünə daha müsbət imic qazanardı. Bunun əvəzində hər şeydən yüksək olan mənəvi gəlir əldə edərdi, nəinki şəhid ailəsini məhkəməyə verib onlara məxsus evi əllərindən almaqla. Ola bilsin, sənədlərdə hüquqla bağlı hansısa kiçik problemlər olub, ancaq bu o demək deyil ki, həmin iş adamı şəhid ailəsinə qarşı bu cür davranış nümayiş etdirməli idi. Bu məsələ artıq kütləvi informasiya vasitələrində müzakirə olunur. Görürsünüz, hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva tərəfindən yenə də, həmişə olduğu kimi, qərar qəbul olundu və aprel şəhidinin ailəsi Nərimanov rayonunda evlə təmin edildi. Xeyirxahlıq Mehriban xanımın həyat kredosudur. Mən şəhid ailəsini evlə təmin etdiyinə görə ona öz təşəkkürümü bildirirəm. Heç olmasa həm dövlət başçısının, həm də Birinci vitse-prezidentin göstərdikləri bu nümunələrdən iş adamları örnək götürsünlər. Onlar cəmiyyətə hər gün yeni nümunələr təqdim edirlər. Biznes sektoru hansı nümunələr göstərir? Şəhid ailəsinin evini əlindən almaq nümunəsi? Şəhid ailəsinə münasibət beləmi olmalıdır? İş adamının aprel hadisəsinin ildönümü ərəfəsində onun ailəsinə məxsus evi əllərindən alması heç cür müsbət qarşılana bilməz. Bu ev aprel şəhidinin ailəsinə aiddir. Bu gün bütün diqqətimiz aprel hadisələrindədir. Aprel şəhidləri Azərbaycan xalqına böyük və yeni qələbə ruhu bəxş etdilər, belə bir insanın ailəsinə münasibətdə biznes adamının bu hərəkəti qətiyyən qəbuledilən deyil. Mən məsələnin mənəvi tərəfindən danışıram, onun hüquqi tərəfinə toxunmaq istəmirəm. Elə məsələlər var ki, orada mənəvi tərəf hüquqdan üstündür. Bu baxımdan, bu məsələyə diqqətlə yanaşılmalı və proses şəhid ailəsinin xeyrinə həll olunmalı idi. Ancaq bunu etmədilər. Çünki bizim biznes adamlarının məfkurə, dünyagörüşü baxımından, sosial məsuliyyət nöqteyi-nəzərindən anlayışları yoxdur, yaxud aşağı səviyyədədir. Çox təəssüf edirəm ki, iş adamı şəhid ailəsinin evinə əl uzatdı, bu, hər şeydən əvvəl mənəvi cəhətdən haqsızlıqdır. Onun bu məsələdə yumşaq mövqe tutmaq imkanı vardı və buna onun gəlirləri, şirkətinin maddi qazancları da imkan verirdi" - deyə bildirən Ə.Nuriyevin sözlərinə görə, şəhid ailəsinin başına oyun gətirən iş adamları sabah cəmiyyət içinə necə çıxacaqlar. "Anlaya bilmirəm ki, şəhid ailələrinə qarşı bu cür hərəkətlər edən şəxslər Allah qarşısında necə hesabat verəcəklər? Belə ədalətsizlik olmaz" - deyə Ə.Nuriyev vurğuladı.

O bildirdi ki, yuva qurmaq istəyən bir insanın yuvasını uçuran insanlar böyük günaha batırlar. "Belə bir davranışı heç kəsə layiq bilməzdim" - deyə Ə.Nuriyev qeyd etdi.

**İradə SARIYEVA**

# Quşçuluq fabriklərində damazlıq yumurta problemi - Cəmiyyətdən reaksiyalar...

**"Azərbaycanın quşçuluq fabrikləri quş əti istehsalında çətinliklərlə üzləşirlər". Bunu media nümayəndələrinə "İsmayıllı Quşçuluq" ASC-nin direktoru Zahid Qardaşov deyib. O qeyd edib ki, bu sahənin aktual problemi damazlıq yumurta tədarükündə dövlət nizamlanmasının olmamasıdır:**



"Ölkədə fəaliyyət göstərən bir neçə təsərrüfat tərəfindən tədarük olunan damazlıq yumurtalar ikinci nəsil yumurtalardır. Birinci nəsil damazlıq yumurtalar, demək olar ki, tədarük olunmur. Hesab edirəm ki, dövlət bu prosesi nəzarət altına almalıdır, çünki nizamlanmanın olmaması bu sahənin inkişafını ləngidir. Hələlik isə bu sahədə hər hansı bir addım atılmır. Broyler şirkətlərinə tədarük olunan damazlıq yumurtalardan diri quş kütləsinin artımı 1,7 kiloqramdan çox deyil. Bu da biznes üçün səmərəli deyil".

O əlavə edib ki, bu səbəbdən quş əti istehsalı ilə məşğul olan müəssisələr çətinliklərlə qarşılaşır və əksər hallarda müflisləşmə ilə üz-üzə qalırlar.

**Ölkəmizdə quş əti istehsalında vəziyyət, quşçuluq fabriklərinin üzləşdikləri çətinliklər mövzusunda Azərbaycan Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyevlə söhbət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda Azərbaycanın quşçuluq fabrikləri ət istehsalı ilə bağlı problem yaşamır. Eyni zamanda, damazlıq yumurta sahəsində hər hansı çatışmazlıq mövcud deyil. Bu mövzu ilə bağlı səslənən fikirlər həqiqəti əks etdirmir: "Zahir Qardaşovun məlum məsələ ilə bağlı səsləndirdiyi fikirlər tamamilə yanlışdır. Ümumiyyətlə, "İsmayıllı Quşçuluq" ASC-nin Azərbaycan Quşçular Cəmiyyətinə aidiyyəti yoxdur. Ola bilsin ki, adıçəkilən quçşuluq fabriki damazlıq yumurta ilə bağlı problem yaşayır. Ancaq bunu bütün fabriklərə aid etmək düzgün deyil".

*Azərbaycan Quşçular Cəmiyyəti - Aydın Vəliyev: "Hazırda Azərbaycanın quşçuluq fabrikləri ət istehsalı ilə bağlı problem yaşamır"*

*Qadir Bayramlı: "Ölkədə quşçuluq fabriklərinin sayının çox olmasına baxmayaraq, məhsuldarlıq istənilən səviyyədə deyil"*

Həmsöhbətimiz onu da vurğuladı ki, damazlıq yumurtanı öncədən sifariş vermək lazımdır. Damazlıq yumurta elə bir məhsuldur ki, qrafik əsasında gətirilir: "İnkubatordan çıxmayan yumurtanı kimsə ala bilməz. Damazlıq yumurta vaxtında safariş olunmayanda ət istehsalında problem yaşanır. Bu səbəbdən də quşçuluq fabrikləri damazlıq yumurtanı vaxtında sifariş verməlidirlər ki, gələcəkdə problem yaşamasınlar".

**Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda ölkədə quşçuluq fabriklərinin sayı az deyil.** Ancaq buna baxmayaraq, məhsuldarlıq istənilən səviyyədə deyil: "Yumurta verən quşlar yetərincə məhsuldar deyil. Bu sahədə yaşanan çatışmazlıqların müxtəlif səbəbləri var. İlk olaraq bildirim ki, yem sahəsində vəziyyət arzuolunan səviyyədə deyil. Məlumat üçün bildirim ki, ölkədə keyfiyyətli yem istehsal edən fabriklərin sayı azdır. Eyni zamanda, quşlar arasında seleksiya işləri zəifdir. Bu da, nəticə etibarilə, yumurta istehsalının həcminə təsir edir".

Q.Bayramlının sözlərinə görə, damazlıq yumurtanın nə səbəbdən zəif tədarük olunması araşdırılmalıdır. İlk olaraq fermerlərin sıxıntılarının nədən ibarət olması müəyyən olunmalıdır: "Nəzərə almaq lazımdır ki, quşçuluq sahəsi dünyada inkişaf etmiş sahələrdən biridir. Xarici təcrübəni öyrənib ölkəmizdə tətbiq etmək mümkün olar".

**Həmsöhbətimiz onu da vurğuladı ki, Azərbaycanın potensialı imkan verir ki, yumurtanı nəinki ölkədaxili istehsal edək, eyni zamanda, ixracat imkanlarını da artırmaq olar. Sadəcə, bu sahədə görülən işləri genişləndirmək lazımdır.**

Ekspertin fikrincə, quşçuluq sahəsini inkişaf etdirmək üçün fermerlərə güzəştli və uzunmüddətli kreditlər verilə bilər.

*Günel CƏLİLOVA*

# Qeyri-Azərbaycandilli birinci siniflərə qəbulda yeni layihə...

**Son bir neçə ildir Azərbaycan orta ümumtəhsil məktəblərinin rus bölmələrinə maraq artıb. Bu gün valideynlərin bir qismi övladlarının rus bölməsində təhsil almasına çalışır. Əvvəlki illərlə müqayisədə iki-üç ildir orta məktəblərin rus bölməsinə güclü axın müşahidə edilir.**



*"Rus dili haqqında təsəvvürü olmayan şagird birinci sinfə qəbul olunursa, onları öyrətməkdə müəllimlər də əziyyət çəkirlər"*

*Mələhət Mürşüdlü: "Düşünürəm ki, orta məktəblərin rus bölümünə qəbul olunmaq istəyən uşaqların həmin dil üzrə müsahibədə iştirakı vacib idi və bu addım da zərurətdən atılıb"*

Yeni tədris ilində rus bölməsinə qəbul olunmaq istəyən şagirdlərlə bağlı yeni qaydalar tətbiq olunacaq. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən mətbuata verilən məlumata görə, 2019-2020-ci tədris ili üçün I sinfə şagird qəbulu zamanı valideyn digər dildə tədris aparılan bölmə seçdiyi zaman uşağın həmin dil üzrə şifahi nitq bacarıqları qiymətləndiriləcək.

İdarədən bildirilib ki, digər dildə tədris aparılan bölmə üzrə uşağın şifahi nitq bacarıqlarının qiymətləndirilməsi dedikdə, onun dinlədiyini anlamaq, ünsiyyət qurmaq və öz fikrini sadə formada ifadə etmək bacarığının olub-olmaması nəzərdə tutulur.

Digər dildə tədris aparılan bölmə üzrə uşaqların I siniflərə qəbulu onların həmin dil üzrə yalnız şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün müvafiq qaydada təşkil edilmiş müsahibə komissiyaları tərəfindən yoxlanılacaq. Müsahibə komissiyasının üzvləri müəllimlərdən ibarət olacaq. 12 inzibati rayon üzrə 9 mərkəzdə müraciət edənlərin sayından asılı olaraq 1, 2 və yaxud 3 komissiya fəaliyyət göstərəcək. Müsahibə komissiyaları aprelin 1-dən fəaliyyətə başlayacaq.

Bildirilənə görə, qiymətləndirilmənin nəticəsi haqqında məlumat günün sonunda SMS vasitəsilə valideynin qeydiyyatdan keçdiyi mobil nömrəyə göndəriləcək: "Valideyn şəxsi kabinet yaradıb övladını elektron qeydiyyatdan keçirdikdən sonra təlim dilini seçir və yaşayış ünvanına uyğun olaraq müsahibə komissiyasında şifahi nitq bacarıqlarının qiymətləndirilməsi üçün qeydiyyata düşür. Əgər valideyn övladını ümumtəhsil məktəblərinin digər dildə tədris aparılan bölməsi üzrə müsahibəyə yazdırmaq istəyirsə, o zaman "Məktəblər" bölməsini seçib, "İrəli" düyməsini sıxmalıdır. Ümumtəhsil məktəbləri seçilibsə, sistem valideynə müvafiq müsahibə komissiyalarından birini seçməyi təklif edir. Həmin pəncərədə məktəbin ərazisini göstərən xəritə, məktəbin ünvanı və əlaqə nömrəsi qeyd edilib".

**Tanınmış təhsil eksperti Mələhət Mürşüdlü mövzu ilə əlaqədar "Bakı-Xəbər"ə bildirdi ki, yeni qaydanın tətbiq olunmasının effektiv nəticələri olacaq.** M.Mürşüdlünün sözlərinə görə, yeni qayda bu il orta məktəblərin rus bölməsinə müraciət edənlərin sayının azalmasına səbəb olsa da, növbəti tədris ilində bu problem olmayacaq. M.Mürşüdlü vurğuladı ki, bir sıra hallarda rus bölməsinə qəbul olunmaq istəyən uşaqların müəyyən qisminin bu dil haqqında təsəvvürü olmur, bu da onların dili mənimsəməsində çətinlik yaradır. "Bu, yeni qərar olduğu üçün, buna həm valideynlər, həm də uşaqlar hazırlıqsızdırlar. Odur ki, bu da orta məktəblərin rus bölməsinin birinci sinfinə müraciət edən şagirdlərin sayının azalmasına səbəb olacaq. Gələn illərdə isə valideynlər uşaqlarını bu bölməyə hazırlaşdıracaq və onlar rahatlıqla gəlib müsahibədə iştirak edəcəklər və birinci sinfə qəbul olacaqlar. Yəni valideynlər 4-5 yaşından uşağını müəllim yanına qoyub hazırlaşdıracaqlar. Düşünürəm ki, orta məktəblərin rus bölümünə qəbul olunmaq istəyən uşaqların həmin dil üzrə müsahibədə iştirakı vacib idi və bu addım da zərurətdən atılıb. Rus bölməsinə qəbul olunmaq istəyən uşaq öz fikrini, düşüncəsini rus dilində ifadə etməyi bacarmalıdır. Bilirsiniz, rus dili haqqında təsəvvürü olmayan şagird birinci sinfə qəbul olunursa, onları öyrətməkdə müəllimlər də əziyyət çəkirlər. Müəllimlər bilmirlər ki, o şagirdlərə rus dilində danışmağı öyrətsinlər, yoxsa proqramı tədris etsinlər. Bu baxımdan, rus bölməsinə daxil olmaq istəyən uşaqların məktəbə hazırlıqlı gəlməsi müəllimlərin də yükünün azalmasına səbəb olacaq. Bu müsahibə ümumi işimizin xeyrinə olacaq. Gələcəkdə rus bölmələri üzrə hazırlıq qruplarının da sayı artacaq" - deyə M.Mürşüdlü bildirdi.

*İradə SARIYEVA*

## Nəsimi rayonunda təmizlik müşavirəsi keçirildi

**Nəsimi rayon İcra Hakimiyyətində rayonun təsərrüfat və digər xidmət sahələri rəhbərlərinin iştirakı ilə rayonun sanitar-təmizlik vəziyyətinə həsr olunmuş xüsusi müşavirə keçirilib.**

Nəsimi RİH-dən "Bakı-Xəbər"ə verilən məlumata görə, müşavirəni giriş sözü ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov son illər rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq, yenidənqurma və yaşıllaşdırma işlərindən danışaraq, rayonda sanitar-təmizlik işlərinin daim nəzarətdə saxlandığını bildirib.

Qeyd olunub ki, rayon üzrə ümumi sanitar-təmizlik vəziyyətinin qənaətbəxş səviyyədə olmasına baxmayaraq, rayon ərazisindəki müxtəlif MTK-lara məxsus bəzi yaşayış binalarının həyətlərində məişət tullantılarının daşınması ilə bağlı yaranan bir sıra çatışmazlıqlar mövcuddur.

Bildirilib ki, bayram günlərində rayonun sanitar-təmizlik vəziyyəti ciddi nəzarətdə saxlanıb. Rayon ərazisindəki parklarda, yaşıllıqlarda sanitar-təmizlik işlərinin nəzarətdə saxlanması, mövcud yaşıllıqlara qulluqgöstərilməsi, yollarda və səkilərdəki abadlıq işlərinin başa çatdırılmasının vacibliyi xüsusi vurğulanıb.

Müşavirədə Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə yaz-yay mövsümünün gəlməsi ilə əlaqədar təmizlik aylığının keçirildiyi bildirilib və Nəsimi rayonunun da bu təşəbbüsə qoşulduğu müşavirə iştirakçılarının nəzərinə çatdırılıb.

Tədbirdə çıxış edənlər - Nəsimi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Elman Yahyayev, Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin 2 saylı MKTB-nin 70 saylı MKİS-in rəisi Fərhad Nagıyev, Bakı Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə işşöbəsinin baş məsləhətçisi Ramiz Quliyev görülmüş işlər barədə məlumat verərək bir sıra təkliflər irəli sürüblər.

Müşavirəyə yekun vuran RİH başçısı Asif Əsgərov rayon ərazisində sanitar-təmzilik işlərinin daim nəzarətdə saxlanması üçün aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

***Baki-xeber.com***

# Lerikin Buruq kəndində anadan olmuşdu - 93-cü ildə erməni gülləsinə hədəf oldu...



**Ömrünün 19-cu ilində Qarabağ müharibəsində Vətən torpaqlarının azadlığı uğrunda müqəddəs şəhidlik məqamına yüksələn Telman Bayraməli oğlu İsmayılov haqqında danışmaq istəyirəm.**

O, 1974-cü ilin mart ayında əzəmətli Talış dağlarının ətəyində yerləşən, təbiətin bütün gözəlliyini öz hüsnündə yaşadan Lerik rayonunun Buruq kəndində anadan olmuşdu. Od götürməli, qeyrət içməli olan İsmayılovlar ailə ocağında əliaçıqlıq, nəcib arzularla elobaya bağlılıq, halallıqla çörək qazanmaq kökdən gəlmədir. Belə bir ailədə tərbiyə alan Telman özünü dərk edən gündən haqq-ədalətə tapınmaqla Vətəni, xalqı üçün qurub-yaratmağı həyat amalı seçir. Orta məktəbi bitirib arzu və istəklərin yaşıl qanadlarında xoş sabahlara doğru üz tutur.

Vətən qeyrətini hər şeydən üstün tutan Telmanın 18 yaşı tamam olur. Ordu sıralarına yola düşür. Bir qədər təlim keçəndən sonra 1992-ci il oktyabr ayınının 12-də Ağdam rayonunda gedən ölüm-dirim savaşına atılır. İlk gündən düşmənə qarşı amansızlığı ilə seçilir. Telman olduğu döyüşlərdə həmişə öndə gedir və qorxu bilmədən Vətən torpaqları naminə sinəsini irəli verir. Göstərdiyi böyük hünər və şücaət bütün əsgər dostlarına nümunə olur. Vətən sevgisini ruhunda yaşatmaqla neçə-neçə döyüşdən zəfərlə çıxır.

Telmanın saf, təmiz duyğular yuvası olan qəlbi 1993-cü ilin iyun ayının 19-da namərd gülləsinə tuş gələrək, igidliklə həlak olur. Bu şərəfli ölümlə Azərbaycan daha bir qəhrəman övladını itirir. Beləcə, Telman özü getsə də, vətəninə məhəbbəti, sədaqəti əbədiyyət ulduzuna dönərək yüzlərlə, minlərlə insana həyat eşqi gətirməklə halal sevgidən güc alıb əsl kişi kimi yaşamağın yollarını öyrədir.

Telman cismən aramızdan gedib. Qaldı ki, məhəbbət soraqlı, sədaqət ünvanlı hər günümüzdə onun sorağı var. Yer üzünü azadlığa, sədətə səsləyən hünər nəğməsidir Telmanın adı. Çox qısa ömür yaşadı. Fəqət vətən yolunda şəhid olduğu üçün ömrünün bu 45-ci ilində o yenə də leriklilərin gözündə əbədi qəhrəmandır.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**ASLANOV RÖVŞƏN YAŞA oğlu**



22 mart 1960-cı ildə Azərbaycan Respublikasının Goranboy rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Goranboy rayon mərkəzində yaşamışdır. Goranboy RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Rövşən Yaşa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 27 iyul 1992-ci ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Rövşən Yaşa oğlu 27 iyul 1992-ci il tarixində Ağdərə rayonunun Möhrətağ (indi Kiçik Qarabəy) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Rövşən Yaşa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV SEYMUR ELMİDAR oğlu**



17 mart 1975-ci ildə Azərbaycan Respublikasının Beyləqan rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Beyləqan rayon mərkəzində yaşamışdır. Beyləqan RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Seymur Elmidar oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 4 iyul 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Seymur Elmidar oğlu 4 iyul 1993-cü il tarixində Ağdam rayonunun Şahbulaq yüksəkliyi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aslanov Seymur Elmidar oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV TACƏDDİN YUNİS oğlu**



11 oktyabr 1966-cı ildə Azərbaycan Respublikasının Füzuli rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Füzuli rayonunun Qorqan kəndində yaşamışdır. Füzuli RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aslanov Tacəddin Yunis oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 avqust 1993-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Tacəddin Yunis oğlu 8 avqust 1993-cü il tarixində Füzuli rayonunun Xatınbulaq kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalmışdır və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Aslanov Tacəddin Yunis oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASLANOV TƏRLAN SALAM oğlu**



11 yanvar 1973-cü ildə Azərbaycan Respublikasının Hacıqabul rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Hacıqabul rayon mərkəzində yaşamışdır. Hacıqabul RHK tərəfindən hərbi xidmətə çagırılmışdır. Hərbçi. Aslanov Tərlan Salam oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 13 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aslanov Tərlan Salam oğlu 13 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Aşağı Veysəlli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aslanov Tərlan Salam oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Qardaş idmançılar qarşılaşacaq...

**Aprel ayının 8-dən 14-dək qardaş Türkiyə Polis Təşkilatının yaranmasının174-cü ildönümünə həsr olunmuş "Polis Həftəsi" adlı tədbirlər keçiriləcək. Tədbirlər sırasında İstanbul şəhərində beynəlxalq futbol turnirinin keçirilməsi də nəzərdə tutulub.**



Turnirdə Azərbaycan Daxili İşlər Nazirliyinin idmançı əməkdaşlardan ibarət komandası da iştirak edəcək.

Bununla əlaqədar komanda təlim-məşq toplantılarına başlayıb.

DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova komandanın heyətini qəbul edərək onlara öz tövsiyyələrini verib, hazırlığını nəzarətə götürüb.

**Komandanın rəhbəri, İdman təlimi bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov bildirdi ki, idmaçılarımız səfərə son hazırlıq tədbirlərini görürlər. Komandanın əsas heyəti 7 nəfərdən ibarətdir. Onlardan 6-sı Əlahiddə Çevik Polis Alayının əməkdaşı, 1-i isə Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşıdır. Onların əksəriyyəti təcrübəli idmançılardır. Təmsilçilərimiz, Türkiyə ilə yanaşı, 8 ölkənin komandası ilə qarşılaşacaq.**

Komandanın məşqçisi ƏÇPA-nın əməkdaşı Atalin Ağayevdir. Qeyd edək ki, Əlahiddə Çevik Polis Alayının komandası dəfələrlə respublika miqyaslı yarışlarda fərqlənib. Müxtəlif yubiley turnirlərinin qalibi olub.

***Zeyni HÜSEYNOV***
***DİN Mətbuat Xidmətinin əməkdaşı***

# Ağdaşın Ləki kəndində mənşəyi məlum olmayan 540 kq ət aşkar olundu

**DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsi və Qida Təhlükəsizliyi Agentliyi, eləcə də Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən birgə keçirilən növbəti tədbir nəticəsində insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, mənşəyi məlum olmayan ət məhsullarının satışının qarşısı alınıb.**



Daxil olan məlumat əsasında martın 28-də Ağdaş rayonu Yuxarı Ləki kənd ərazisində keçirilmiş birgə tədbirlər nəticəsində Mingəçevir şəhər sakini Şirin Kərimlinin idarə etdiyi "Ford" markalı avtomobil saxlanıb. Həmin avtomobilin yük yerinə baxış keçirilən zaman 534 kq çəkidə mənşəyi məlum olmayan ət aşkar olunaraq götürülüb. Ətdən götürülən nümunələr Qida Təhlükəsizliyi Agentliyinin laboratororiyasına göndərilib. Ş.Kərimli izahatında həmin əti satmaq məqsədilə Bakı şəhərinə aparmaq istədiyini bildirib.

Faktla bağlı araşdırma aparılır.

# Yetkinlik yaşına çatmayanlara siqaret satanlar cərimələnib

**Polis orqanları yetkinlik yaşına çatmayanlara alkoqollu içkilərin və tütün məmulatlarının satışının qarşısının alınması istiqamətində mütəmadi tədbirləri davam etdirir.**

Martın 28-də DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi və Suraxanı Rayon Polis İdarəsi əməkdaşlarının rayon ərazisində keçirdiyi reydlər nəticəsində Hövsan qəsəbəsində 3 mağazada satıcıların yetkinlik yaşına çatmayanlara tütün məmulatı satması faktları aşkar edilib.

Həmin satıcı barəsində İnzibati Xətalar Məcəlləsinin 455.2-ci maddəsinə əsasən (Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə) protokol tərtib olunub.

Bu istiqamətdə reydlər davam etdirilir.

## "Bakcell" Gəncə şəhərində təşkil edilmiş "Novruz şəhərciyi"nin baş sponsoru olub

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" ölkəmizdə Novruz bayramı münasibətilə keçirilmiş ümumxalq şənliklərində aktiv iştirak edib. Şirkət Gəncə şəhərində təşkil edilmiş böyük "Novruz şəhərciyi"nin baş sponsoru olub.**



Bayram günlərində Gəncənin Heydər Əliyev meydanında salınmış böyük "Novruz şəhərciyi"ndə hündürlüyü 4,5 metr olan nəhəng səməni quraşdırılmış, gün ərzində şəhərciyə gələn qonaqları isə Novruz bayramının əsas atributları olan Kosa, Keçəl və Bahar qızı qarşılayıblar. Şəhərcikdə müxtəlif milli məhsulların nümayişi və satışı həyata keçirilib, qonaqların və xüsusi olaraq uşaqların asudə vaxtının maraqlı təşkili üçün müxtəlif attraksionlar quraşdırılıb. "Novruz şəhərciyi"ndə, həmçinin, Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə konsert proqramları təqdim olunub."Novruz şəhərciyi" Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, Gəncə Regional Mədəniyyət İdarəsinin və "Gənclənd" ailəvi-istirahət kompleksinin təşkilatçılığı ilə salınıb.

"Bakcell" şirkəti Azərbaycanın milli dəyərləri və mədəni sərvətlərinə bağlılığını bir daha nümayiş etdirərək bayram günlərində Gəncə şəhərində təşkil edilmiş böyük "Novruz şəhərciyi"nin baş sponsoru olub. Şəhərcikdə quraşdırılmış "Bakcell" stendinə gələn qonaqları və xüsusi olaraq uşaqları müxtəlif sürprizlər, əyləncələr və maraqlı hədiyyələr gözləyirdi. Həmçinin, burada qonaqlar "Bakcell"in məhsul və xidmətləri barədə məlumat əldə etmək və pulsuz mobil nömrə almaq imkanına malik olublar.

Xatırladaq ki, "Bakcell" şirkəti Novruz bayramında həm Gəncə şəhərində təşkil edilmiş böyük "Novruz şəhərciyi"nin, həm də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil edilmiş "Bahar Qalası" festivalının sponsoru olub.

"Bakcell" şirkətinin dəstəyilə keçirilmiş ümumxalq Novruz şənliklərində minlərlə vətəndaş və ölkəmizin qonaqları iştirak edib.

## "Polisin bu yaxşılığını unutmayacağıq..."

**Bakı şəhər sakini Kazım Hüseynov Daxili İşlər Nazirliyinə ünvanladığı təşəkkür məktubunda polis əməkdaşlarına minnətdarlığını bildirir.**

K.Hüseynov qeyd edir ki, Novruz bayramı ərəfəsində Balakən rayonunda dayısıgildə qonaq olub. Martın 24-də dayısının yeni doğulmuş körpəsinin səhhəti qəfildən pisləşib. Uşağı Qax rayonunda olan həkim pediatora çatdırmaq lazım gəlib. Onlar təcili Qax şəhərinə yollanıblar.

Yolu tanımadıqlarından şəhərin girişində xidmət aparan Yol Patrul Xidməti avtomobilinə yaxınlaşıblar. Vəziyyəti polis əməkdaşına izah edərək körpəni təcili həkimə çatdırmaq üçün yolu soruşublar. Yol polisi əməkdaşı xidməti avtomobili ilə onları xəstəxanaya qədər müşayiət edib.

Müəllif polisin bu cür davranışının, diqqət və qayğısının, xeyirxah və humanist əməllərinin insanlarda çox böyük fərəh hissi oyatdığını yazır. O, şəxsi heyətin xalqa xidmət ruhunda tərbiyə olunmasına, humanizminə görə DİN rəhbərliyinə, həssas münasibətinə görə Qax DYPB-nin əməkdaşı Anar Qurbanova təşəkkürünü bildirir.

## Elan

Bağırova Xoşavaz Qədir qızının adına, Bakı şəhəri, Səbail rayonu, Badamdar, 1-ci Massiv küçəsində yerləşən torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş bağ massivində yerləşən № 3201 bağın sahibi Rəfail Əlisurət Həmidovun adına verilmiş order itdiyi üçün etibarsız sayılır.

Paşayev Nəsrəddin İmaməddin oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

№ 56 (3954) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

30-01 MART-APREL 2019-cu il

www.baki-xeber.com



## Dünyanın ilk sualtı restoranı...

Norveçdə Avropanın ilk, dünyanın isə ən böyük sualtı restoranı açılacaq. "Oxu.az" bildirir ki, restoran ölkənin cənubunda yerləşən Lindesnes şəhərində aprel ayının 2-də açılacaq. 5,5 metrlik dərinlikdə inşa edilən restoran 100 nəfər qonaq üçün nəzərdə tutulub. Restoranın kənardan görünüşü dəniz dərinliklərindən yüksələn qayanı xatırlatdığından "Under" adlanır. Layihənin inşası Misir Kitabxanası ilə Norveç Milli Opera və Balet binasını inşa edən "Snohetta" şirkətinə həvalə edilib. Restoranın eni 11, uzunluğu isə 4 metr olan bir divarı demək olar ki, şüşədən hazırlanıb. Müştərilər dənizin dərinliklərindəki ən müxtəlif dəniz canlılarına, o cümlədən suitilərə rahat tamaşa edə bilərlər. Müştərilər bu məkanda danimarkalı aşpaz Nikolay Ellitsqard Peders tərəfindən hazırlanan menyuda, xüsusilə dəniz məhsulları və yabanı qoyunlardan hazırlanan təamları dadmaq imkanına sahib olacaq. Menyudakı yeməklərin dadına baxmaq üçün adambaşına 232 avro xərcləmək lazım gələcək. Üç hissədən - giriş, bar və restorandan ibarət müəssisənin aprel ayının 2-də müştərilərin istifadəsinə veriləcəyi bildirilsə də, avqust ayına qədər bütün masalar artıq ehtiyat saxlanıb.

## Cəlilabadda daşdan hazırlanmış qədim əşyalar aşkarlandı

**Cəlilabadda kənd sakinləri təsərrüfat işləri görərkən maraqlı maddi mədəniyyət nümunələri aşkar ediblər.**



Bunlar arasında ən maraqlısı dəmirdən hazırlanmış döyüş baltasıdır. Rayonun Şatırlı kəndində aşkarlanmış maddi mədəniyyət nümunələrinin əksəriyyəti daşdan hazırlanmış əşyalardır. Onlardan birinin üzərində xüsusi damğa var ki, tarixçilərin sözlərinə görə, bu adam mənasını ifadə edir. Tarixi mənbələrdə bu tip nümunələrə Altay və Şərqi Anadolu əraziləri boyunca da rast gəlinir. Tapıntılar arasında ən maraqlısı isə dəmirdən olan döyüş baltasıdır. İndiyə kimi Cəlilabad rayonunda dəmirdən müxtəlif növ alətlər tapılsa da, döyüş baltasının tapılması ilk hadisədir. Tarixi məlumatlara görə, qədimdə silah qismində istifadə olunan alət 5-8-ci əsrlərə aiddir. Tapılmış tarixi nümunələr Cəlilabad tarix diyarşünaslıq muzeyinə təhvil verilib.

## Yadplanetlilər bizimlə niyə əlaqəyə girmirlər? - Alimlərin müzakirəsi

**Bu günə qədər Süd Yolu qalaktikasında ən azı 4 min ekzoplanetin mövcudluğu kəşf edilib. "Ölkə.az" bildirir ki, sözügedən planetlər Yerdəki kimi canlı həyat üçün əlverişlidir.**

Ehtimal edilir ki, kainatda belə planetlərin sayı trilyonlarladır. "METİ İnternational" tərəfində Parisdə növbəti görüş keçirilib. Görüşdə astrofizika, sosiologiya, biologiya, tarix, psixologiya, ufologiya kimi elmlərin tədqiqatçıları iştirak ediblər və bu məsələ barədə müzakirə aparıblar. "METİ"nin direktorlar şurasının üzvü və seminarın həmsədri Florens Raulin Serso deyib: "Yadplanetli sivilizasiya ilə rabitənin qurulmaması bir neçə səbəbdən ola bilər: Sadəcə bizə, toxunmurlar. Çünki bu, Yer cəmiyyətinin inkişafına mənfi təsir edə bilər; Zooparkda olduğu kimi sadəcə bizi müşahidə edirlər; Bizim kosmosda canlı və şüurlu varlıq axtarmaq üçün göndərdiyimiz siqnallar bizi izləyənlər tərəfindən imkan edilir; Ola bilər ki, yadplanetli şüur bizim şüurdan çox fərqlidir və bu səbəbdən əlaqə yaranmır; Çox güman ki, Yerdəki insan cəmiyyəti yüksək inkişaf etmiş qalaktika irqləri tərəfindən sadəcə bir təcrübədir. Ola bilər ki, kainat miqrasiyasının bir formasıyıq.

## Çində robot keşikçi sınaqdan keçirilir

**Pekində ucaldılmış Meyyuan yaşayış kompleksində Pekin Avtomatlaşdırılmış Aerokosmik İdarəetmə İnstitutunun mühəndisləri tərəfindən hazırlanmış "Meibao" adlı robot keşikçi sınaqdan keçirilir.**

Robot gecələr yaşayış kompleksinin ərazisinə keşik çəkəcək, şübhəli insanları müəyyənləşdirdikdə bu barədə polis işçilərinə məlumat verəcək. "AZƏRTAC" bildirir ki, bu robot keşikçini əvəz edəcək: o, gecələr yaşayış kompleksinin ərazisinə keşik çəkəcək və sifətin tanınması texnologiyasının köməyi ilə sakinləri müəyyənləşdirəcək. "Meibao" adlı robot ərazidə kənar insan görüb onu şübhəli hesab etdikdə dərhal idarəetmə mərkəzinə siqnal göndərəcək. Sözügedən robotun yaradıcıları bildiriblər ki, qurğu yalnız insanlara reaksiya göstərməyəcək, həm də yanğın təhlükəsi və başqa təhlükələr haqqında xəbərdarlıq edəcək.

## Yaponiyada adaların yaranmasını tədqiq etməyə şərait yaradan ən qədim daşlar tapıblar

Yaponiyanın tədqiqatçılar qrupu ölkə ərazisində ən qədim tarixə malik daşları aşkar etdiklərini bildirib. "AZƏRTAC" bildirir ki, təqribən 2,5 milyard yaşı olan bu daşlar yapon adalarının formalaşmasını tədqiq etməyə şərait yaradacaq. Hiroşima Universitetinin dosenti Yasutaka Hayasakanın rəhbərlik etdiyi qrupun üzvləri öz tapıntıları barədə martın 25-də məlumat veriblər. Həmin daşların 2017-ci ildə Yaponiyanın qərbində yerləşən Şimane prefekturasında iki yerdə aşkar edildiyi bildirilir. Tədqiqatçıların qənaətinə görə, həmin daşlar təqribən 2,5 milyard il əvvəl daşlamış maqmadan əmələ gəliblər. Buna qədər olan rekordun 1970-ci ildə Qifu prefekturasında tapılan və 2 milyard yaşı olan daşa məxsus olduğu bildirilir.







**Qoç** - Çətinliklər sizi qorxutmur, istənilən problemi həll etmək gücündəsiniz. Əgər hadisələrin inkişafı gözləmədiyiniz bir məcra ilə axırsa, özünüzü itirmirsiniz. Demək olmaz ki, işdə başgicəlləndirici uğurlar qazanacaqsınız, ancaq şərait elə də pis deyil.



**Buğa** - Qeyri-adi hərəkətləriniz, orijinal ideyalarınız hər kəsi heyrətləndirəcək. Bu gün baş verənlər adi hadisələr deyil, bu səbəbdən sizin davranışınız da adi olmayacaq. Pul ala bilərsiniz.



**Əkizlər** - Əməkdaşlığa başlamaq üçün əla gündür. Yeni insanlarla tanış ola bilərsiniz. Başqalarının gücünün yetmədiyi işləri qətiyyət və cəsarətlə öz üzərinizə götürür və əla nəticələr qazanırsınız.



**Xərçəng** - Gün gözəl və məhsuldar keçərkən bir sıra gözlənilməz hadisələr baş verir. Heç nəyi diqqətsiz qoymaq olmaz. Odur ki, müşahidə qabiliyyətinizi itiləyin, xırdalıqları qaçırmayın.



**Şir** - İşdə uğurlar qazana bilərsiniz. Çoxdankı məqsədlərinizə çata bilərsiniz. İstədiyinizi almaq üçün istənilən maneəni aşmağa, zəhmət çəkməyə hazırsınız. Azacıq maliyyə itkiləri mümkündür.



**Qız** - Sevinmək üçün asanlıqla bəhanə tapırsınız. Odur ki, pozitiv emosiyaların qıtlığından şikayətlənməyəcəksiniz. Ancaq narahatlığınız da az olmayacaq - istənilən xırdalığı ürəyinizə salmağa meyllisiniz.



**Tərəzi** - Dünyanızı dəyişdirmək üçün gücünüz yetər. Əsas odur ki, hərəkət istiqamətinizi düzgün seçəsiniz. Eyni zamanda, bir neçə iş görməklə heç nəyə nail ola bilməyəcəksiniz, yaxşı olar ki, doğrudan da vacib hesab etdiyiniz bir işlə məşğul olasınız.



**Əqrəb** - Zərif cinsin nümayəndələri ilə ünsiyyət, sırf "qadın tədbirləri"nə qatılmaq üçün münasib gündür. Üstəlik, nüfuzlu adamlarla işgüzar danışıqlar aparmaq və vacib məsələləri müzakirə etmək olar.



**Oxatan** - Möhtəşəm hadisələr gözləməyin. Əvvəlcə başladığınız işi sakitcə sona yetirə bilərsiniz. Düşmənlərinizin işinizə qarışacağından, yaxud şəraitin istəmədiyiniz axarda dəyişəcəyindən qorxmayın.



**Oğlaq** - Cəmiyyətdə baş verən proseslər, siyasi xarakterli hadisələr həyatınıza güclü təsir göstərir. Fəlsəfi və sosial suallar fikrinizi məşğul edir, şəxsi işləriniz ikinci plana keçir.



**Dolça** - Ünsiyyət bacarığı, çox müxtəlif xasiyyətli insanlarla dil tapmaq məharətiniz köməyinizə gələcək. İdeyalarınızı gerçəkləşdirmək, möhtəşəm bir nəticə ortaya qoymaq şanslarınızı qaçırmırsınız.



**Balıqlar** - Cazibəniz, gözəl zövqünüz, xoş rəftarınız diqqətdən kənarda qalmayacaq. Təsadüfi tanışınız, iş ortaqlarınız, yaxud da rəhbəriniz olacaq bir şəxslə - kiminlə olur-olsun - görüşünüz super keçəcək, hamıda əla təəssüratlar yaradacaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Türkiyədə 1300 il yaşı olan Tövrat nüsxəsi müsadirə olunub

**Türkiyənin təhlükəsizlik xidmətinin əməkdaşları Afyonkarahisar vilayətində 1300 il yaşı olan Tövrat nüsxəsini müsadirə ediblər.**



"AZƏRTAC" bildirir ki, polis əməkdaşları yəhudilərin müqəddəs kitabının ən qədim nüsxələrindən birini adı açıqlanmayan şəxsin avtomobilini yoxladıqları zaman aşkar ediblər. Türkiyə milli təhlükəsizlik xidmətinin göstərişi ilə avtomobilin sahibinin və həbs edilmiş daha 5 nəfərin adları gizli saxlanılır. Dəri səhifələrdə yazılmış mətni və qalın dəri üzlüyü olan kitabın dəyərinin milyonlarla dollar olduğu bildirilir.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.